RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 93 (9260) 6 MAY 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

◆ Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Xocavənd və Füzuli rayonlarına səfəri

# Prezident Xocavənd və Füzuliyə yeni həyat bəxş edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 5-də Xocavənd və Füzuli rayonlarına səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma Tuğ kəndində həyata keçiriləcək turizm layihələri barədə məlumat verilib. İnzibati mərkəzin və ilk yaşayış məhəlləsinin təməli qoyulub.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hadrut qəsəbəsində 360 şagird yerlik tam orta məktəbin bərpa layihəsi ilə tanış olub, ilk yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak ediblər. Turizm Məlumat Mərkəzi barədə məlumat verilib. İnzibati Mərkəzin təməlqoyma mərasimində iştirak ediblər.

Dövlət başçısı Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin, "Hadrut" qovşaq yarımstansiyasının və Rəqəmsal İdarəetmə mərkəzinin açılışlarını edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunun Pirəhmədli kəndinin təməlqoyma mərasimində iştirak ediblər, Füzuli-Hadrut avtomobil yolunun 12,3 kilometrlik hissəsinin açılışını edib, Dədəli kəndinin təməlini qoyublar. Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən Füzuli yaşayış kompleksində aparılan inşaat işləri ilə tanış olub, Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlqoyma mərasimində iştirak ediblər.

Dövlət başçısına və birinci xanıma Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa edilən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin tikintisi barədə məlumat verildi.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Füzuli Rəqəmsal Yarımstansiyası və İdarəetmə Mərkəzinin açılışını edib.

Dövlət başçısı və birinci xanım Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə tikilən məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olublar.

Sonra Prezident İlham Əliyev Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməlini qoyub.

→ 2-5

## Heydər Əliyev İli

## Xilaskar Lider



Həqiqət zülmət qaranlığın bağrını dələn, onu nurlandıran gün işığıdır. Əslində, həqiqətə heç gün işığı da lazım deyil. Bu gün bizim əsl həqiqətimiz Azərbaycanın rəmzi kimi dünyada qəbul edilən Ulu Öndər Heydər Əliyevdir - xalqa xidmət yolunda əsrlərə sığmayan qədər böyük tarixi işlər görən, adı bəşəriyyətin yaddaşına qızıl hərflərlə yazılan tarixin Ən Böyük Azərbaycanlısı! Həyat və fəaliyyəti Azərbaycan xalqı üçün taleyin böyük bir töhfəsi, həm də tükənməz bir xəzinədir. Yaşadığı ömür yolu qürur və iftixar mənbəyimizdir, həyat məktəbidir. Bu məktəbdən bugünkü və gələcək nəsillər çoxşaxəli fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz, şərəfli bir hissəsini təşkil edən Ulu Öndərin müdriklik dərsini öyrənəcək, müqəddəs ideyalarından, irsindən bəhrələnəcəklər.

Çox xoşbəxtik ki, Ulu Öndərin müasirləri və qurub yaratdığı müstəqil Azərbaycan dövlətinin vətəndaşları olmuşuq. Bu gün hər birimiz, bütövlükdə dünyada yaşayan əlli milyon azərbaycanlı, bütün türk dünyası, müsəlman aləmi Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin işığına yığışıbdı. İstər respublikamızda, istərsə də ölkəmizdən kənarda keçirilən möhtəşəm silsilə yubiley tədbirləri azərbaycanlıların öz Dahisinə necə dərin və sonsuz məhəbbət bəslədiyini parlaq şəkildə təcəssüm etdirir. Milli maraqları və Vətənə xidməti hər şeydən üstün tutaraq şah əsəri olan müstəqil Azərbaycanı qurub yaradan Ümummilli Lider milli dövlətçiliyin inkişafı, ölkəmizin beynəlxalq aləmdə layiqincə təmsil olunma missiyasını ömrünün sonunadək şərəflə davam etdirmişdir.

Ümummilli Liderin qurub yaratdıqları, müdrik ideyaları bütün dövrlər üçün daimidir, aktualdır. Heydər Əliyev irsi yüz illər boyu Azərbaycan xalqına yol göstərəcək, ölkəmizin davamlı inkişafına möhtəşəm töhfəsini verəcək. Ulu Öndərin ideyalarından güc alan Azərbaycanın müstəqilliyi Heydər Əliyevin dediyi kimi əbədidir, dönməzdir və sarsılmazdır! Biz dünyaya Heydər Əliyev zirvəsindən, müstəqil, bütöv Azərbaycandan baxırıq.

→ 7

## Serbiya Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandar Vuçiçə

Hörmətli cənab Prezident!

Belqrad şəhərində yerləşən məktəbdə baş vermiş dəhşətli faciə barədə xəbəri dərin sarsıntı və kədər hissi ilə qarşıladıq.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Serbiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2023-cü il*

## Azərbaycanda Türkiyədə keçirilən seçkilərə səsvermə başladı

Yüzlərlə Türkiyə vətəndaşı öz seçimini etmək üçün səfirliyə gəlir. İlk səs verənlərdən biri də Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı idi. Səfir səsvermənin Türkiyə milləti və dövləti üçün xeyirli-uğurlu olmasını diləyib. "Bu gün qardaş Azərbaycanda yaşayan Türkiyə vətəndaşları öz namizədlərinə səs verirlər. İnsanlarımız öz seçimini edir", - deyə səfir bildirib. Səs vermək üçün gələnlər arasında gənclər, ortayaşlılar, eləcə də ahıllar var. Seçicilər bir-bir qeydiyyatçılara yaxınlaşır, bir neçə dəqiqəyə mövcud prosedur qaydalarını yerinə yetirir və bülleteni qutuya atıb məntəqədən çıxırlar.

→ 10

**Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Xocavənd və Füzuli rayonlarına səfəri**

**XOCAVƏND**

# Prezident Xocavənd və Füzuliyə yeni həyat bəxş edir

## Xocavəndin Tuğ kəndində turizm inkişaf konsepsiyası üzrə layihələr həyata keçiriləcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 5-də Xocavənd rayonuna səfər ediblər.



AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma Tuğ kəndində həyata keçiriləcək turizm layihələri barədə məlumat verildi.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bildirdi ki, agentlik Tuğda təqdim etdiyi turizm konseptual yanaşma çərçivəsində üç istiqamətdə - tarixi-memarlıq üslubunu qorumaqla mədəni turizmin inkişaf etdirilməsi, təbiət resurslarından səmərəli istifadə edib ekoturizm və "yaşıl destinasiya" konseptində turizm sənayesinin inkişaf etdirilməsi və aqroturizm resurslarından istifadə etməklə dayanıqlı və icmaəsaslı turizm inkişaf konsepsiyası üzrə layihələrin həyata keçirilməsini planlaşdırır.

Qeyd olundu ki, ilk mərhələdə Tuğ kəndində keçmiş məktəb binası olmuş yaşayış korpusunun konservasiyası nəzərdə tutulur. Kəndin tarixi memarlığı dərindən öyrənildikdən və kifayət qədər yerli memarlıq üslubunda elmi-tədqiqat və elmi təhlillər, praktiki təcrübə qazanıldıqdan sonra bu abidənin bərpası layihəsi həyata keçirilə bilər. Çünki Tuğda ənənəvi Azərbaycan memarlığına işğal dövründə çox müdaxilə edilib və bəzi tikililər açıq-aşkar vandalizmə məruz qalıb. Buna görə də ilkin olaraq ümumi sahəsi 1464 kvadratmetr olan tikililərin konservasiyası və konsolidasiyası işləri ilə yanaşı, 6515 kvadratmetrlik ətraf ərazinin abadlaşdırılması nəzərdə tutulur. Bundan başqa, kəndin mərkəzi hissəsində yerləşən, ümumi sahəsi 450 kvadratmetr olan mövcud tarixi tikililərin bərpa edilərək Turizm İnformasiya Mərkəzi və şərab dequstasiya yeri kimi istifadə edilməsi nəzərdə tutulur. Tuğ kəndinə gələcəkdə turizm axını ilə əlaqədar burada keyfiyyətli xidmətlərin göstərilə biləcəyi iaşə obyektinin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, tarixən şərabçılıq destinasiyası kimi tanınan Tuğ kəndi Xocavənd və Füzuli rayonlarının üzüm sahələrindən toplanan məhsuldan alınan şərabları ilə məşhur olub. Şərab zavodunun ümumi sahəsi 1300 kvadratmetrdir və onun ətrafındakı 850 kvadratmetrlik sahənin abadlaşdırılması nəzərdə tutulur. Zavod üçün müasir turizm konsepti tətbiq ediləcək. Belə ki, bura yalnız şərab istehsal edilən yer deyil, həmçinin Tuğ bölgəsində tarixən mövcud olmuş şərabçılıq ənənəsinin təbliğ olunduğu məkana çevriləcək. Kompleksin tərkibində müxtəlif tədbir və festivalların keçirilməsi üçün çoxtəyinatlı məkanlar olacaq.

Diqqətə çatdırıldı ki, Kulinariya Təlim Mərkəzi təkcə Qarabağın deyil, bütün Azərbaycan mətbəxinin turistlərə təbliğ və eksperimental kulinariya metodlarının tətbiq edildiyi məkanlardan biri olacaq. Tikilinin tərkibində qruplar və heyətlər üçün mətbəx, qəbul, dequstasiya otaqları nəzərdə tutulur.

Həmçinin Tuğ kəndinin Şuşa yolu üzərində vacib turizm destinasiyası olması faktı nəzərə alınaraq burada avtomobil dayanacağı da yaradılacaq.

Bildirildi ki, Tuğ kəndində tarixi tikililər, küçələr, hasar və darvazalar ənənəvi memarlıq üslubunda bərpa və konservasiya olunacaq. Görüləcək işlərin planına, həmçinin Tuğ ərazisində mövcud tarixi bulaqların bərpası, küçə boyunca hasar və tikililərin təmiri də daxildir.

Qeyd olundu ki, gələcəkdə Tuğ kəndində turizm infrastrukturunun inkişafından və yerli icmanın kəndə qayıtmasından sonra bir sıra fəal turizm məhsullarının inkişaf etdirilməsi planlaşdırılır. Tuğ kəndinin Hadrut qəsəbəsinin və Füzuli şəhərinin yaxınlığında yerləşməsi, Şuşaya gedən yolun buradan keçməsi amilləri nəzərə alınaraq, gələcəkdə ətrafdakı tarix və mədəniyyət abidələrinə haykinq və piyada turizm marşrutlarının yaradılması, piyada gəzintisi üçün dağ cığırlarının keçdiyi yerlərdə kempinq zonaların, kiçik etnoqrafik festivalların, günlük turist səfərlərinin təşkili və digər layihələrin həyata keçirilməsi üçün böyük potensial var.

## Tuğ kəndində inzibati mərkəzin təməlqoyma mərasimi olub





Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonunun Tuğ kəndində inzibati mərkəzin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və birinci xanıma ilkin mərhələdə Tuğ kəndinin ictimai-inzibati mərkəzində inşası planlaşdırılan binalar barədə məlumat verdi.

Bildirildi ki, kənddə 1,63 hektar sahəni əhatə edəcək inzibati zonada ikimərtəbəli inzibati bina, klub icma və mədəniyyət mərkəzləri, restoran tikiləcək. Burada tikiləcək və bərpa ediləcək binaların ümumi sahəsi 3200 kvadratmetr olacaq.

Ərazidə genişmiqyaslı abadlıq işlərinin görülməsi, yerüstü parkinq sahəsinin yaradılması nəzərdə tutulub. Bu ərazilərə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. İnzibati mərkəzdə tikinti-bərpa işlərinin gələn ilin martında başa çatdırılması nəzərdə tutulur.

Dövlət başçısı inzibati mərkəzin təməlini qoydu.

## Tuğ kəndində ilk yaşayış məhəlləsinin təməli qoyulub



Mayın 5-də Xocavənd rayonunun Tuğ kəndində ilk yaşayış məhəlləsinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məhəllənin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Dövlət başçısına və birinci xanıma yaşayış məhəlləsi barədə məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 99 hektara yaxın olan ilk yaşayış məhəlləsi Tuğ kəndinin təsdiq edilmiş baş planına uyğun qaydada salınacaq. 1089 nəfərin yaşaması üçün nəzərdə tutulan məhəllədə birinci mərhələdə 24 tarixi fərdi ev bərpa ediləcək, 95 ev isə yenidən tikiləcək. Növbəti mərhələlərdə isə məhəllədə 244 yeni fərdi evin tikilməsi nəzərdə tutulur.

Məhəllədə 360 yerlik məktəb binası, 50 yerlik uşaq bağçası, ticarət mərkəzləri, məscid, kilsə, tibb məntəqəsi, aptek, idman sağlamlıq sahəsi, tərəvəz və meyvə anbarı da olacaq. Ümumiyyətlə, yaşayış məhəlləsində əhalinin məşğulluğu üçün hər cür şərait təmin ediləcək.

Diqqətə çatdırıldı ki, Tuğ kəndində bir sıra binaların - inzibati bina, klub-icma mərkəzi, məktəb, bağça və 15 fərdi evin tikinti-bərpa işlərinin 2024-cü ilin martında tamamlanması planlaşdırılır.

## Hadrut qəsəbəsində 360 şagird yerlik məktəb binasının bərpa layihəsi ilə tanışlıq





Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hadrut qəsəbəsində 360 şagird yerlik tam orta məktəbin bərpa layihəsi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma layihə barədə məlumat verildi. Bildirildi ki, bərpa olunacaq məktəb 1,9 hektar ərazidə yerləşir. Əsaslı təmir və yenidənqurma işlərindən sonra məktəbdə 15 sinif otağı, idman və akt zalları, yeməkxana, kitabxana, hərbi dərs otağı, 3 laboratoriya və 2 texnologiya otağı, informatika otağı olacaq. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları müasir avadanlıq və ləvazimatlarla təchiz ediləcək.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunmuş rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə dağıdılan təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Hadrutda məktəb binasının tikintisi də bu işlərin tərkib hissəsidir.

XOCAVƏND

Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Xocavənd və Füzuli rayonlarına səfəri

# Prezident Xocavənd və Füzuliyə yeni həyat bəxş edir

## Hadrutda ilk yaşayış məhəlləsində 28 fərdi ev tikiləcək

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hadrut qəsəbəsində salınacaq ilk yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, dövlət başçısına görüləcək işlər barədə məlumat verildi.

Qeyd edildi ki, ilk yaşayış məhəlləsi 28 fərdi evdən ibarət olacaq. Tikiləcək evlərin ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olması nəzərdə tutulur. Mənzillərin sahəsi 70-120 kvadratmetr təşkil edəcək.

Bildirildi ki, Hadrut qəsəbəsində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin tikintisi "PMD Group" MMC tərəfindən yerinə yetirilir.

Dövlət başçısı Hadrut qəsəbəsində ilk yaşayış məhəlləsinin təməlini qoydu.



Vətən müharibəsində şanlı Qələbə müjdəsini Azərbaycan xalqına çatdıran tarixi müraciətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi "Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq" fikir Hadrut rayonunda ilk yaşayış məhəlləsinin təməlinin qoyulması ilə bir daha təsdiqini tapır. Otuz ilə yaxın müddətdə doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan hadrutlular üçün ilk yaşayış məhəlləsinin təməlinin qoyulması onları bu arzularına daha da yaxınlaşdırır.

## Hadrut qəsəbəsində inzibati mərkəzin təməli qoyulub

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonunun Hadrut qəsəbəsində inzibati mərkəzin təməlinin qoyulması mərasimində iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma layihə barədə məlumat verildi. Bildirildi ki, inzibati zonanın ümumi sahəsi 4,2 hektardır. Buraya inzibati bina, bələdiyyə binası, mədəniyyət mərkəzi və infrastruktur qurumlarının ofislərinin binaları daxildir.

Qəsəbənin inzibati ərazisinə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. Yol və kommunikasiya xətlərinin ümumi uzunluğu 1100 metr olacaq. Hadrut qəsəbəsinin inzibati ərazisinin tikintisinin 2024-cü ilin martında başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev Hadrut qəsəbəsində inzibati mərkəzin təməlini qoydu.

## Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin açılışı olub

Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin açılışında iştirak edib.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Yolun hərəkət hissəsinin eni 14,5 metr, torpaq yatağının eni isə 21,5 metrdir.

Dövlət başçısının tapşırığına əsasən, Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq dörd hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilib. Yolun üzərindəki 6 körpünün tikintisi başa çatıb. Yol boyunca 18 avtobus dayanacağı quraşdırılıb.

Yeni avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla həmin rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək. Qeyd edək ki, bu yol Azərbaycan Prezidentinin 2021-ci il 29 aprel tarixli Sərəncamına əsasən inşa olunur.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hadrutun turizm inkişaf konsepsiyası barədə məlumatlandırıldı

Mayın 5-də Hadrut qəsəbəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Hadrut qəsəbəsinin turizm inkişaf konsepsiyası barədə məlumat verilib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma Hadrutda turizmin inkişaf etdirilməsi üçün Dövlət Turizm Agentliyi tərəfindən ilk növbədə qəsəbənin tarixi hissəsində mərkəzi məhəllənin bərpasının və abadlaşdırılmasının nəzərdə tutulduğu bildirildi.

Qeyd olundu ki, Hadrutun tarixi hissəsində bərpa və konservasiya işləri çərçivəsində ilkin dövrdə Qafqaz Albaniyasının tarixi-mədəni irsinə aid məbədin, onun yanındakı üç tikilinin bərpası, həmin ərazinin abadlaşdırılması planlaşdırılır. Məhz bu hissədə bərpa və konservasiya işləri gələcəkdə Hadrutda aparılacaq tarixi tikililərin bərpa işləri üçün ilkin təcrübə olacaq və digər işlər bu təcrübəyə əsaslanaraq aparılacaq.

Məlumat verildi ki, bu xristian məbədi Hadrutun tarixi hissəsinin əsas memarlıq abidəsidir. Qafqaz Albaniyası dövründə həmin məbəd müxtəlif dövrlərdə bir neçə dəfə bərpa edilib. Məbəd sonuncu dəfə 1621-ci ildə bərpa olunub. Bu məbədin divarlarında daha qədim dövrdə tikilmiş abidənin daşlarından istifadə edilib. Buna görə də Qafqaz Albaniyası dövrünə aid məbəd və onun ətrafında Dövlət Turizm Agentliyi tərəfindən bərpa və abadlaşdırma işləri görülməzdən əvvəl burada elmi-tədqiqat və arxeoloji qazıntıların aparılması nəzərdə tutulur. Çünki işğal dövründə Hadrutda olan bir sıra abidələr kimi, bu məbədin də tarixi mənşəyinə ermənilər tərəfindən müdaxilələr edilib.

Yerli əhəmiyyətli memarlıq abidəsi kimi rəsmi olaraq dövlət mühafizəsinə götürülən məbəd kompleksinin ərazisində onlarca qəbir daşı yerləşir. Bununla əlaqədar ərazinin arxeoloji cəhətdən tədqiq edilməsinə ehtiyac yaranıb.

Azərbaycan Prezidentinə və birinci xanıma Turizm Məlumat Mərkəzi barədə də məlumat verildi.

Qeyd olundu ki, Hadrutun mərkəzi hissəsində yerləşən tarixi mülkün bərpa edilərək Turizm Məlumat Mərkəzi kimi fəaliyyət göstərməsi nəzərdə tutulur. Mərkəzdə Hadruta gələn ilk turist qruplarına qəsəbə və ətraf kəndlərdəki turizm obyektləri haqqında məlumat veriləcək. Turizm Məlumat Mərkəzi iki hissədən ibarət olacaq. Birinci hissə turistlərin qəbulu sahəsi, ikinci hissə isə turizm işçiləri üçün ofis kimi nəzərdə tutulur.

## "Hadrut" qovşaq yarımstansiyası və İdarəetmə Mərkəzi istifadəyə verilib

Dünən "Hadrut" qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.



"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, yeni inşa edilən "Hadrut" qovşaq yarımstansiyasının təməli 2021-ci il oktyabrın 9-da Prezident İlham Əliyev tərəfindən qoyulub.

Bildirildi ki, "Şükürbəyli", "Hadrut" və "Şuşa" yarımstansiyaları arasında yaradılan 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olan 35/0,4 kV-luq 2x1600 kVA gücündə yeni "Hadrut" qovşaq yarımstansiyası Hadrut qəsəbəsində qurulacaq müxtəlif təyinatlı infrastrukturun elektrik enerjisinə tələbatını ödəyəcək. Həmçinin yeni qovşaq yarımstansiyası Xocavənd rayonunun bir hissəsinin, Şuşa və ətraf ərazilərin elektrik təchizatının etibarlılığını və dayanıqlılığını təmin edəcək.

Yarımstansiyada Rəqəmsal Elektrik Şəbəkələrinin İdarəolunması Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin artırılmasına zəmin yaradacaq. Zərurət yaranarsa "Hadrut" qovşaq yarımstansiyası vasitəsilə Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarını da elektrik enerjisi ilə təchiz etmək mümkün olacaq.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Qeyd olundu ki, Təlim-Tədris Kompleksində beynəlxalq tədbirlərin keçirilməsi üçün bütün zəruri şərait nəzərə alınıb.

Kompleksin Regional Tədris Mərkəzində yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiq və istismar qaydaları, peşə vərdişlərinin əldə edilməsi, real iş şəraitində təlimlər və ustalıq yarışlarının təşkili nəzərdə tutulur. Mərkəz təlim-tədris zalından və təlim poliqonundan ibarətdir. Tədris zalı 35/0,4 kV-luq müasir şəbəkə modelinin, 35 və 0,4 kV-luq fiber-optik kabellərin, kompozit şüşə-lifli dayaqların tətbiq sahələri, perspektiv inkişafı və üstünlüklərinin əyani şəkildə təqdim edilməsi üçün nəzərdə tutulub. Burada həmçinin xüsusi dayaqlarda şəbəkədə istifadə edilən element və ləvazimatlar qurulub.

İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" mənbələrinin (işlək günəş və külək enerji qurğuları) tətbiqinə dair real işlək model də tərtib edilib, həm personalın, həm də gələcəkdə fəal istehlakçıların maarifləndirilməsi təlimlərində istifadəsi nəzərdə tutulub. Eyni zamanda elektroenergetika sahəsində əldə edilmiş tarixi nailiyyətləri əks etdirən elektron guşə və əyani vəsait stendləri, müasir uçot cihazları (SMS, Smart, NFC sayğacları) və müasir təhlükəsizlik texnikası, idarəetmə plakatları təqdim edilir.

Məlumat verildi ki, beynəlxalq tədbirlər poliqonu isə peşə ustalığı yarışları və müasir texnologiyaların əyani nümayişi üçün nəzərdə tutulmuş texnoloji ərazidir. Eyni zamanda poliqonda günəş və külək enerjisi qurğularının quraşdırılması, istismarı və müasir idarəetmə sistemləri üçün BOEM-təlim sahəsi planlaşdırılıb. Təlim poliqonunda real iş şəraitində istifadə edilən müasir şəbəkə modeli, "yaşıl enerji" elementləri (günəş və külək enerji mənbələri) və innovativ layihə maketlərinin yerləşdirilməsi nəzərdə tutulub. Poliqon beynəlxalq peşə ustalığı yarışlarının, elektrotexniki təlim tədbirlərinin keçirilməsi və müxtəlif istiqamətlər üzrə təcrübə mübadiləsinin əyani nümayiş etdirilməsi üçün də geniş imkanlar yaradacaq.

Burada yaradılan Regional Logistika Mərkəzi isə region üzrə tələb olunan nəqliyyat, xüsusi texnika və mal-materialın nəqli, təmiri və saxlanması üçün nəzərdə tutulub. Məqsəd tələb olunan texniki vasitələrin vaxt itkisi olmadan əraziyə çatdırılması və saz vəziyyətdə saxlanmasından ibarətdir.

Transformator xidmət sahəsində müasir paylayıcı şəbəkələrdə tətbiq edilən güc transformatorlarının təmiri, sazlanması və müasir cihazlarla təchiz edilməsi həyata keçiriləcək.

Mərkəzi laboratoriya smart sayğaclar, kabel, izolyator, qurğu və avadanlıqların test sınaq-diaqnostika tədbirlərinin həyata keçirilməsi üçün nəzərdə tutulub.

**Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Xocavənd və Füzuli rayonlarına səfəri**

**FÜZULİ**

# Prezident Xocavənd və Füzuliyə yeni həyat bəxş edir

## Füzuli rayonunun Pirəhmədli kəndinin təməli qoyulub

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunun Pirəhmədli kəndinin təməlinin qoyulması mərasimində iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Pirəhmədli kəndinin layihələndirilən ümumi ərazisi 178 hektardır. Kəndə 2 min 369 nəfərin köçürülməsi planlaşdırılıb. Burada ümumilikdə 565 fərdi ev tikiləcək və hər bir evin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 70,3 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 280 fərdi evin tikilməsi nəzərdə tutulur.

Kənddə çoxfunksiyalı inzibati binanın, mehmanxana və kafe-restoranın, məscid və mərasim evinin, yanacaqdoldurma məntəqəsinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 480 yerlik orta məktəbin, 80 yerlik 2 uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin və kitabxananın, ticarət obyektinin, bazarın, rabitə qovşağının tikintisi planlaşdırılıb.

Diqqətə çatdırıldı ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin layihələndirilməsi nəzərdə tutulub. Tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev Pirəhmədli kəndinin təməlini qoydu.

## Füzuli rayonunun Dədəli kəndində birinci mərhələdə 327 ev tikiləcək

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonunun Dədəli kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısına kənddə görüləcək işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, kəndin layihələndirilən ümumi ərazisi 314 hektardır. Bu kənddə 4495 nəfərin (1129 ailə) məskunlaşması nəzərdə tutulub. Tikiləcək 1050 fərdi evin hər birinin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Qeyd edildi ki, birinci mərhələdə Dədəli kəndində 1373 nəfərin yaşayacağı 327 fərdi ev tikiləcək.

Kənddə çoxfunksiyalı inzibati bina, məscid və mərasim evi, yanacaqdoldurma məntəqəsi, aptek, idman klubu, tibb mərkəzi, 840 yerlik orta məktəb, 100 yerlik iki uşaq bağçası, istirahət və yaşıllıq zonaları, klub-icma mərkəzi və kitabxana, ticarət obyektləri, bazar fəaliyyət göstərəcək.

Məlumat verildi ki, Dədəli kəndi də tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət məqsədilə bu kənddə də alternativ enerjidən istifadə, istilik tutumlu evlərin layihələndirilməsi nəzərdə tutulub. Bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq. Kənddə tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev Dədəli kəndinin təməlini qoydu.

## Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməli atılıb

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma şəbəkə barədə məlumat verildi.

Bildirildi ki, şəhərdaxili yolların ümumi uzunluğunun 87 kilometrdən çox olması nəzərdə tutulub. İlkin mərhələdə 18,5 kilometr yolun tikintisi planlaşdırılır. Birinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 44, ikinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 34, ümumşəhər əhəmiyyətli küçə və yolların eni 24, yerli əhəmiyyətli küçə və yolların eni isə 20 metr olacaq.

Şəhərdaxili yollarda piyadaların rahat hərəkətini təmin etmək üçün piyada yolları, ətraf mühitə dəyən zərəri azaltmaq üçün yaşıllıq zolaqları, sağlamlığa faydalı vərdişləri artırmaq üçün velosiped yolları, ictimai nəqliyyat üçün xüsusi hərəkət zolaqları yaradılacaq. Prospektlərin dördzolaqlı, küçə və yolların isə ikizolaqlı olacağı planlaşdırılır.

Füzuli şəhərində daxili yol-küçə şəbəkə sxemi və kommunikasiya xətlərinin layihəsi vahid işçi qrupu tərəfindən bütün qurumların rəyi alınmaqla hazırlanıb. Şəhərdaxili yollar inşa olunarkən piyada səkilərinin altından keçəcək elektrik, qaz, su, rabitə, kanalizasiya və yağış sularının axıdılması xətləri ilə birlikdə həyata keçiriləcək. Bu isə həm vaxta, dövlət vəsaitinin qənaətinə, işlərin optimallaşdırılmasına və yüksək səviyyədə əlaqələndirilməsinə imkan yaradacaq, həm də kommunikasiya şəbəkələrinin paralel çəkilməsi zamanı yarana biləcək problemlərin aradan qaldırılmasına imkan verəcək.

Prezident İlham Əliyev Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlini qoydu.

Sonra dövlət başçısına və birinci xanıma Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa edilən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin tikintisi barədə də məlumat verildi.

## Füzuli-Hadrut avtomobil yolunun açılışı olub

Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli-Hadrut avtomobil yolunun açılışında iştirak edib.





AZƏRTAC xəbər verir ki, dövlət başçısına görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Ümumi uzunluğu 12,3 kilometr olan yol birinci texniki dərəcəlidir. Bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 14 metrdir.

Layihəyə əsasən yolun 6,7 kilometrliyində, "Qarğabazarı" adlanan ərazidən keçən hissəsində biraşırımlı avtomobil körpüsü inşa olunub. Körpünün uzunluğu 18 metr, eni isə 21 metrdir.

## MİDA tərəfindən Füzuli yaşayış kompleksində görülən işlərlə tanışlıq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən Füzuli yaşayış kompleksində görülən inşaat işlərinin gedişi ilə tanış olublar.



AZƏRTAC xəbər verir ki, Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlət başçısına və birinci xanıma tikinti işlərinin gedişi barədə məlumat verdi.

Qeyd olundu ki, ümumi sahəsi 8,9 hektar olan yaşayış kompleksi 38 binadan ibarətdir. Dördmərtəbəli, beşmərtəbəli, altımərtəbəli və yeddimərtəbəli binalarda ümumilikdə 846 mənzil olacaq. Onların 318-nin ikiotaqlı, 430-nun üçotaqlı, 98-nin isə dördotaqlı olması nəzərdə tutulur. İkiotaqlı mənzillərin sahəsi 54-68 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 71-109 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 92-108 kvadratmetr təşkil edəcək. Hazırda kompleksin inşası sürətlə və keyfiyyətlə davam etdirilir. Tikinti işlərinin 2023-cü ilin sonunadək başa çatdırılması planlaşdırılır. Kompleksdə bütün mənzillər tam təmirli olacaq, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz ediləcək. Bütün binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin ediləcək. Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək.

FÜZULİ

## Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Xocavənd və Füzuli rayonlarına səfəri

# Prezident Xocavənd və Füzuliyə yeni həyat bəxş edir

## "Azərişıq" ASC-nin Füzuli Rəqəmsal Yarımstansiyası və İdarəetmə Mərkəzinin açılışı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Füzuli Rəqəmsal Yarımstansiyası və İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına görülən işlər barədə məlumat verildi.

Ölkənin elektroenergetika sektorunda texnoloji innovasiyaların tətbiqi və infrastrukturun rəqəmsal transformasiyasının sürətləndirilməsi istiqamətində inşa edilən Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin təməli 2021-ci il oktyabrın 17-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Bildirildi ki, mərkəzin elektrik təchizatı üçün 110/35/10 kV-luq "Füzuli" yarımstansiyasından ikidövrəli yeraltı kabel xətləri çəkilib. Mərkəzin birinci mərtəbəsində birinin gücü 2500 kVA olan iki güc transformatoru, 35 və 0,4 kV-luq qapalı paylayıcı qurğular, ikinci mərtəbədə isə rəqəmsal idarəetmə, texniki və köməkçi otaqlar yerləşir.

Prezident İlham Əliyev Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzini işə saldı.







Qeyd olundu ki, rəqəmsal şəbəkələrin təməl elementi olan Rəqəmsal Yarımstansiya elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini, vahidliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır.

Rəqəmsal yarımstansiyadan qidalanan istehlakçılar elektrik enerjisi verilişində fasilələrin yaranması barədə məlumatları onlayn qaydada əvvəlcədən ala bilirlər. Bərpaolunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası prosesi rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Rəqəmsal yarımstansiya alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-biri ilə əlaqələndirilməsini tam təmin edir. Bundan əlavə, əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılmasını, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyətini, "yaşıl enerji" mənbələrinin şəbəkəyə inteqrasiyasını da həyata keçirir. Yarımstansiya qapalı tiplidir, istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirilir.

## Özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa olunan məktəb binasında tikinti işlərinin gedişi ilə tanışlıq



Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən 960 şagird yerlik məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma inşaat işlərinin gedişi barədə məlumat verildi.

Bildirildi ki, ötən il başlanılan tikinti işlərinin bu ilin dekabrında başa çatdırılması planlaşdırılır. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, akt zalı, idman zalı, yeməkxana, kitabxana yaradılacaq. Məktəbin ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa ediləcək. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilir. Qeyd edək ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

## Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməli qoyulub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlət başçısına layihə haqqında məlumat verdi. Bildirildi ki, layihə 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla Füzuli şəhərində 50 min nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində 15 subartezian quyusunun qazılması, uzunluğu 10,7 kilometr olan magistral su kəmərinin, tullantı sutəmizləyici qurğunun inşası, eyni zamanda ümumi uzunluğu 103 kilometr olan su şəbəkəsinin qurulması və digər işlərin görülməsi nəzərdə tutulur. Birinci mərhələdə 17 min kubmetr tutumu olan su anbarının inşası planlaşdırılıb. Bu anbar şəhər əhalisinin təxminən 80 faizini içməli su ilə təmin edəcək. İkinci mərhələdə isə Füzuli şəhərinin əhalisinin qalan 20 faizinə xidmət göstərən, tutumu 5 min kubmetr olan su anbarı inşa ediləcək.

Dövlət başçısı kompleksin təməlini qoydu.

# Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli 155 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli 155 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 1001; 2008, № 12, maddə 1057; 2010, № 7, maddə 617; 2011, № 1, maddə 21; 2012, № 1, maddə 9, № 12, maddə 1265; 2014, № 1, maddə 15; 2018, № 11, maddə 2241; 2022, № 11, maddə 1269) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Sumqayıt Baş Gömrük İdarəsinin rəisi - gömrük xidməti general-mayoru", "Qərb Ərazi Baş Gömrük İdarəsinin rəisi - gömrük xidməti general-mayoru", "Cənub Ərazi Baş Gömrük İdarəsinin rəisi - gömrük xidməti general-mayoru" və "Şimal Ərazi Baş Gömrük İdarəsinin rəisi - gömrük xidməti general-mayoru" abzasları ləğv edilsin.

1.2. "Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi" sözləri "Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsinin rəisi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 540; 2013, № 12, maddə 1552; 2014, № 1, maddə 14; 2015, № 6, maddə 699; 2016, № 9, maddə 1487, № 10, maddə 1626; 2017, № 12 (I kitab), maddə 2333; 2018, № 7 (I kitab), maddə 1487; 2019, № 6, maddə 1031; 2020, № 2, maddə 97, № 6, maddə 702; 2022, № 7, maddə 742, № 8, maddə 871, № 11, maddə 1268; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 20 fevral tarixli 2037 nömrəli və 29 mart tarixli 2072 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissənin birinci abzasına "daxil olan" sözlərindən sonra "gömrük orqanları və tabeliyində olan digər" sözləri əlavə edilsin;

1.2. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. ərazi gömrük idarələri:

2.1.1. Bakı Baş Gömrük İdarəsi;

2.1.2. Naxçıvan Baş Gömrük İdarəsi;

2.1.3. Astara Gömrük İdarəsi;

2.1.4. Balakən Gömrük İdarəsi;

2.1.5. Biləsuvar Gömrük İdarəsi;

2.1.6. Gəncə Gömrük İdarəsi;

2.1.7. Xaçmaz Gömrük İdarəsi;

2.1.8. Sumqayıt Gömrük İdarəsi;

2.1.9. Şərqi Zəngəzur Gömrük İdarəsi;

2.1.10. Tovuz Gömrük İdarəsi;";

1.3. 2.2.2-ci yarımbənddə "Enerji resursları və dəniz nəqliyyatında Baş Gömrük İdarəsi" sözləri "Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsi" sözləri ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda 2.2.4-cü yarımbənd əlavə edilsin:

"2.2.4. Azad və Xüsusi İqtisadi Zonalar üzrə Gömrük İdarəsi;";

1.5. 2.4-cü bəndə "digər qurumlar" sözlərindən əvvəl "tabeliyində olan" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2023-cü il*

# Ceyhun Bayramovla Mövlud Çavuşoğlu Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə son danışıqları müzakirə ediblər

Mayın 5-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı xarici işlər nazirləri Azərbaycanla Türkiyə arasında gündəlikdə duran ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə mövcud regional vəziyyət ətrafında fikir mübadiləsi aparıblar.

Nazirlər həmçinin Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsi üzrə aparılmış son danışıqları müzakirə ediblər.

Tərəflər telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə toxunublar.

# İqtisadiyyat naziri Macarıstan şirkətlərini ölkəmizin əlverişli biznes mühitindən yararlanmağa çağırıb



İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizdə səfərdə olan Macarıstanın iqtisadi inkişaf naziri Marton Nadın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Macarıstan əlaqələrinin inkişaf etdiyi, dövlət və hökumət başçılarının qarşılıqlı səfərlərinin, keçirilmiş görüşlərin əməkdaşlığın möhkəmlənməsində mühüm rolu vurğulanıb.

Azərbaycanda xarici şirkətlərin fəaliyyəti üçün yaradılmış biznes mühiti barədə məlumat verən Mikayıl Cabbarov Macarıstan şirkətlərini ölkəmizin əlverişli biznes mühitindən yararlanmağa dəvət edib.

Marton Nad Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın həyata keçirdiyi layihələrin əhəmiyyətindən bəhs edib, iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüb. Qeyd edilib ki, səfər çərçivəsində macar şirkətlərinin yerli tərəfdaşlarla müvafiq görüşlərinin keçirilməsi iki ölkənin iş adamları arasında işgüzar əlaqələrin qurulması baxımından əhəmiyyətli olacaq. Görüş zamanı macar şirkətlərinin təqdimatı keçirilib.

# Hava hücumundan müdafiə bölmələrinin taktiki təlimləri keçirilib

Bu ilin hazırlıq planına uyğun olaraq hava hücumundan müdafiə bölmələrinin döyüş atışlı taktiki təlimi keçirilib.



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Praktiki atışlar zamanı şərti düşmənin hava hədəfləri aşkarlanaraq daşınan zenit-raket kompleksləri vasitəsilə məhv edilib.

Qarşıya qoyulan döyüş tapşırıqları şəxsi heyət tərəfindən müvəffəqiyyətlə yerinə yetirilib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Londonda Birləşmiş Krallığın dövlət naziri ilə görüşüb



Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarova Böyük Britaniya və Şimali İrlandiya Kralı III Çarlzın tacqoyma mərasimində iştirak etmək məqsədilə bu ölkədə işgüzar səfərdədir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, mayın 5-də Sahibə Qafarova Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa regionu üzrə dövlət naziri Leo Dokerti ilə görüşüb.

Dövlət naziri Leo Dokerti spiker Sahibə Qafarovanı salamlayaraq, tacqoyma mərasimində iştiraka görə təşəkkürünü bildirib. O, Birləşmiş Krallıqla Azərbaycanın münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edərək, ölkəmizin Avropanın enerji təchizatçısı kimi rolunun günbəgün artdığını, onun mühüm ticarət və enerji tərəfdaşı olduğunu qeyd edib. Dövlət naziri Azərbaycanın regionda sabitləşdirici rol oynadığını diqqətə çatdırıb və cari ilin fevral ayında Bakıya səfərini məmnunluqla xatırladıb. Nazir səfər zamanı Azərbaycan rəsmiləri ilə keçirdiyi görüşlərin əhəmiyyətini qeyd edib və Azərbaycan Milli Məclisinin fəaliyyəti ilə maraqlanıb.

Spiker Sahibə Qafarova göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Spiker Azərbaycan və Birləşmiş Krallıq arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərdən söz açaraq siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın dinamik inkişafını qeyd edib.

Sahibə Qafarova Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyəti barədə ətraflı məlumat verib. O, parlamentlərimiz arasında əlaqələrin hazırkı inkişaf səviyyəsinin razılıq doğurduğunu qeyd edib. Milli Məclisin Sədri ötən ilin iyul ayında Londona səfərini və səfər çərçivəsində parlament rəhbərliyi ilə keçirdiyi görüşləri məmnunluqla xatırladıb.

Spiker Sahibə Qafarova görüşdə hazırda regionda mövcud olan vəziyyət barədə də məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər mövzularda da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Leyla Əliyeva Ulu Öndərin 100 illiyinə həsr olunan ekoloji aksiyalara qatılıb

Yaşıllıqların artırılmasına, ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm vermiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar mayın 5-də Lənkəran rayonunda silsilə ekoloji aksiyalar keçirilib.







AZƏRTAC xəbər verir ki, ilk olaraq Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və gənc könüllülərin iştirakı ilə Lənkəran rayonunun meşə fondu ərazisində ağacəkmə tədbiri keçirilib. Meşəbərpa məqsədilə keçirilən tədbirdə adı Azərbaycanın "Qırmızı kitabı"na düşmüş dəmirağac əkilib.

Sonra Hirkan Milli Parkında turistlərin rahat hərəkət etməsi üçün ekoturizm cığırının "çex modeli" üzrə nişanlanması həyata keçirilib. Sözügedən üsulun ölkəmizdə ekoturizmin inkişafına təkan verməsi məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərində geniş tətbiq edilməsi nəzərdə tutulur.

Tədbirin davamı olaraq IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın daxili su hövzələrində balıq populyasiyasının mühafizəsinə və artırılmasına yönəlmiş "Zəngin hövzələr" layihəsi çərçivəsində Xanbulan gölünə balıq körpələrinin buraxılışı həyata keçirilib. Belə ki, sözügedən gölə ümumilikdə 50 000 çəki körpəsi buraxılıb.

Daha sonra Bakı Zooloji Parkı tərəfindən Azərbaycanın nadir və nəsli kəsilməkdə olan fauna növlərinin çoxaldılması üzrə IDEA İctimai Birliyi ilə əməkdaşlığı çərçivəsində təqdim edilən 7 baş tirəndaz (oxlu kirpi) Hirkan Milli Parkının ərazisinə buraxılıb.

Lənkəranda keçirilən ekoloji aksiyaların təşkilatçıları ölkə ictimaiyyətini Azərbaycanın zəngin və həssas biomüxtəlifliyinin mühafizə edilməsi, yaşıllıqların artırılması, bərpası və ətraf mühit naminə görülən digər səylərdə fəal iştirak etməyə çağırır.





# Heydər Əliyev İli 2023



# Xilaskar Lider

## Ulu Öndər Heydər Əliyev xalqımızın təhlükəsiz həyat və fəaliyyətinin təmin olunmasına hər zaman xüsusi diqqətlə yanaşıb

**Həqiqət zülmət qaranlığın bağrını dələn, onu nurlandıran gün işığıdır. Əslində, həqiqətə heç gün işığı da lazım deyil. Bu gün bizim əsl həqiqətimiz Azərbaycanın rəmzi kimi dünyada qəbul edilən Ulu Öndər Heydər Əliyevdir - xalqa xidmət yolunda əsrlərə sığmayan qədər böyük tarixi işlər görən, adı bəşəriyyətin yaddaşına qızıl hərflərlə yazılan tarixin ən böyük azərbaycanlısı! Həyat və fəaliyyəti Azərbaycan xalqı üçün taleyin böyük bir töhfəsi, həm də tükənməz bir xəzinədir. Yaşadığı ömür yolu qürur və iftixar mənbəyimizdir, həyat məktəbidir. Bu məktəbdən bugünkü və gələcək nəsillər çoxşaxəli fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz, şərəfli bir hissəsini təşkil edən Ulu Öndərin müdriklik dərsini öyrənəcək, müqəddəs ideyalarından, irsindən bəhrələnəcəklər.**

Çox xoşbəxtik ki, Ulu Öndərin müasirləri və qurub-yaratdığı müstəqil Azərbaycan dövlətinin vətəndaşları olmuşuq. Bu gün hər birimiz, bütövlükdə dünyada yaşayan əlli milyon azərbaycanlı, bütün türk dünyası, müsəlman aləmi Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin işığına yığışıbdı. İstər respublikamızda, istərsə də ölkəmizdən kənarda keçirilən möhtəşəm silsilə yubiley tədbirləri azərbaycanlıların öz dahisinə necə dərin və sonsuz məhəbbət bəslədiyini parlaq şəkildə təcəssüm etdirir. Milli maraqları və Vətənə xidməti hər şeydən üstün tutaraq şah əsəri olan müstəqil Azərbaycanı qurub-yaradan Ümummilli Lider milli dövlətçiliyin inkişafı, ölkəmizin beynəlxalq aləmdə layiqincə təmsil olunma missiyasını ömrünün sonunadək şərəflə davam etdirmişdir.

Heydər Əliyev 1969-cu ilin ikinci yarısında Azərbaycana rəhbərlik etməyə başlayanda respublikamız bütün istiqamətlər üzrə 15 müttəfiq respublika arasında ən geridə qalmış vəziyyətdə idi. Yaşanan tənəzzül, iqtisadiyyatı və milli özünüdərki bürümüş dərin böhran hər bir sahədə mənfi nəticələrini göstərirdi. Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atan Ulu Öndər qısa müddətdə respublikada idarəçilik sistemini möhkəmləndirdi. Azərbaycanda, sözün əsl mənasında, misli görünməmiş islahatlara başlanıldı, respublikamız böyük tikinti-quruculuq, abadlıq meydanına çevrildi. Respublikamızın siması tamamilə dəyişdi, paytaxtımız dünyanın müasir şəhərləri sırasına daxil oldu.

Heydər Əliyevin gərgin səyləri nəticəsində Azərbaycanın dinamik və hərtərəfli inkişafını təmin edəcək kompleks proqramlar hazırlanıb qəbul edildi, onların işlək mexanizmə çevrilməsi, icrası ölkəmizin gələcəyi baxımından tarixi əhəmiyyətli addımlardan oldu. O illərdə Heydər Əliyev dahi uzaqgörənliklə reallaşdırdığı əzəmətli işlərlə milli özünüdərkin oyanmasının, milli kimliyimizə, kökümüzə qayıdışın yeni mərhələsinin əsasını qoydu, əsl intibah dövrü yaşandı. Azərbaycan dilinə rəsmi dövlət dili statusu qazandırdı. Azərbaycanın elmi və kadr potensialını gücləndirdi, keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərinə gənclərin göndərilməsi, güclü milli zabit heyətinin formalaşdırılması üçün çox ciddi işlər görüldü ki, bu da gələcək müstəqil Azərbaycan dövlətinin yaradılmasına doğru atılan qətiyyətli addımlar idi.

Ümummilli Lider yüksək sürətlə inkişaf edən ölkəmizin iri addımlarla irəlilədiyi o illəri xatırlayarkən deyirdi: "Azərbaycanın sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır". 1982-ci ildə artıq Azərbaycan bütün istiqamətlərdə inkişaf baxımından keçmiş SSRİ-də birinci ölkələrdən idi. Ulu Öndər yeganə azərbaycanlı olaraq sovet rəhbərliyində yüksək vəzifədə çalışdığı illərdə də ölkəmiz və xalqımız üçün əlindən gələni etdi.

Ümummilli Lider Heydər Əliyev sovetlər birliyində yaşadığımız dövrdə və müstəqillik illərində sosial-iqtisadi həyatın digər sahələri kimi, xalqımızın təhlükəsiz və firavan həyatının təmin edilməsi işinə də daim xüsusi əhəmiyyət vermişdir. 1969-cu ildə hakimiyyətə gələrkən insan həyat və fəaliyyətinin təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm islahatlara başlayan Ulu Öndər qısa vaxt ərzində bu sahədə qabaqlayıcı tədbirlərin görülməsi və onların idarə edilməsi sisteminin yaradılmasına, təkmilləşdirilməsinə, xilasetmə işinin yüksək səviyyədə qurulmasına, əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması kimi həyati əhəmiyyətli tədbirlərin təşkilinə və həyata keçirilməsinə nail olmuşdur. Müasir texnika, cihaz və avadanlıqların alınmasına, xilasedici mütəxəssislərin hazırlanmasına, onların keçmiş ittifaqın müvafiq ali məktəblərində təhsil almasına nail olmuşdur. Eyni zamanda Azərbaycanın təhsil və səhiyyə müəssisələrində mülki müdafiənin əsaslarını tədris edən kafedraların təşkili diqqət mərkəzində saxlanılmışdır. Beləliklə, Ulu Öndər tərəfindən mülki müdafiə sisteminin əsaslı fundamenti qoyulmuşdur. Təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılması sahəsində mükəmməl proqramlar qəbul olunmuş və həyata keçirilmişdir.

Həmin illərdə güclü kadr potensialının yaradılması məsələlərini kompleks şəkildə həll edən Ümummilli Lider Heydər Əliyev təkcə mülki müdafiə qüvvələri üçün deyil, eyni zamanda Azərbaycanın yanğından mühafizə orqanının milli kadrlarla təmin edilməsi istiqamətində mühüm işlər görmüşdü. XIX əsrin sonlarından başlayaraq formalaşan Azərbaycanın yanğın təhlükəsizliyi xidməti uzun illər fəaliyyət göstərməsinə, sıralarında yüzlərlə azərbaycanlının fədakarlıqla xidmət etməsinə baxmayaraq, 1969-cu ilə qədər ölkənin yanğından mühafizə idarəsinə daim qeyri-millətlərin nümayəndələri rəhbərlik etmişlər. Bu sözləri tam mənada mülki müdafiə qurumlarına da şamil etmək olar. Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə mənzərə tamamilə dəyişmiş, bu qurumların rəhbərliyinə azərbaycanlılar gətirilməyə, rəhbər vəzifələrə irəli çəkilməyə başlanılmışdır. Eyni zamanda 1970-ci ilə qədər Azərbaycandan kənarda xüsusi məktəblərdə çox az sayda azərbaycanlı gənc təhsil alırdısa, 70-ci illərin sonunda artıq keçmiş SSRİ-nin müxtəlif ixtisaslaşmış ali və orta ixtisas məktəblərində Azərbaycanın yanğından mühafizə orqanlarının yüzlərlə əməkdaşı elmi və praktiki biliklərə, vərdişlərə yiyələnirdilər. Təsadüfi deyil ki, bu gün mülki müdafiə qüvvələrində, yanğından mühafizə və nəzarət orqanlarında fəaliyyət göstərən mütəxəssislərin bir hissəsi məhz Heydər Əliyevin birinci hakimiyyəti dövrünün məzunlarıdır.

Neft sənayesinin yanğın təhlükəsizliyini diqqət mərkəzində saxlayan Ulu Öndər Heydər Əliyev bu sahədə baş verən yanğın hadisələrinin qarşısının alınması ilə bağlı çox ciddi addımlar atmışdır. Sənayedə və dağ-mədən işlərində təhlükəsizliyin təmin edilməsi məqsədilə 1969-cu ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-mədən Nəzarəti Dövlət Komitəsi təşkil edildikdən sonra bu sahədə təhlükəsizlik məsələlərinə diqqət daha da artırılmışdır.

Respublikanın rəhbəri Heydər Əliyevin 1971-ci il oktyabrın 20-də indiki "Azərneftyanacaq" İstehsalat Birliyinin 7-ci rezervuar stansiyasının 3-cü sexində güclü yanğın baş verən əraziyə gəlməsi, yanğınsöndürənlərlə birgə olması ölkəmizin yanğın təhlükəsizliyi xidmətinin tarixinə şanlı səhifələrdən biri kimi daxil olub. Heydər Əliyevin tapşırığı ilə 70-ci illərdə Xəzər dənizi akvatoriyasındakı neft-qaz sənayesi obyektlərinin yanğın təhlükəsizliyini qoruyan və istismar müddətini bitirmiş gəmilər yeniləri ilə əvəz olunmuşdur. Ümummilli Liderin nüfuzu sayəsində "Vixr" tipli yanğınsöndürmə gəmiləri Azərbaycana gətirilmişdir. Hər cür çətin hava şəraitində yüksək manevretmə qabiliyyətinə, xüsusi yanğınsöndürmə avadanlıqlarına malik, müasir naviqasiya vasitələri ilə təchiz olunmuş bu gəmilər Azərbaycanın dövlət müstəqilliyi dövründə də Xəzər dənizi akvatoriyasındakı neft-qaz sənayesi obyektlərinin yanğın təhlükəsizliyində mühüm rol oynamaqdadır.

1974-cü il sentyabrın 13-də Biləcəri dəmiryol stansiyasında sərnişin və yük qatarlarının toqquşması səbəbindən xeyli sayda insanın ölümü ilə nəticələnən hadisə baş vermişdir. Dərhal hadisə yerinə gələn respublikanın rəhbəri Heydər Əliyevin göstərişi ilə xəsarət alanlara yüksəkkeyfiyyətli tibbi yardım göstərilmiş, həlak olanların yaxınları diqqət və qayğı ilə əhatə olunmuş, onlara yardımlar edilmişdir.

1981-ci ilin noyabr-dekabr aylarında İsmayıllı rayonunda baş verən güclü zəlzələ nəticəsində əlli kilometrədək radiusda iki mindən çox bina, əsasən də köhnə tikililər dağılmışdır. Hadisə yerinə gələn respublikanın rəhbəri baş vermiş zəlzələnin fəsadları ilə yerindəcə tanış olmuş, təbii fəlakətdən zərərçəkənlərlə görüşüb, aidiyyəti qurumlara müvafiq tapşırıqlarını vermişdir. Qısa vaxt ərzində zəlzələdən zərərçəkənlər müvəqqəti çadırlarda yerləşdirilmiş, onlar lazımi ərzaq, içməli su və isti geyimlə təmin olunmuşlar. Heydər Əliyevin tapşırıqlarına əsasən, dağılan infrastrukturun bərpası sürətlə həyata keçirilmişdir.

Heydər Əliyev Moskvada Sov.İKP.MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu illərdə nəhəng sovet dövlətinin həyati əhəmiyyətə malik bir çox sahələrinə rəhbərlik etmişdir. Həmin illərdə də insan təhlükəsizliyinin təmin olunması məsələlərinə xüsusi fikir verən Heydər Əliyev baş vermiş bir sıra təbii və texnogen hadisələrin, fövqəladə vəziyyətlərin aradan qaldırılmasına rəhbərlik edir, bu istiqamətdə mühüm tədbirlər görürdü. 1986-cı il avqustun 30-da Novorossiysk yaxınlığında sərnişin teploxodu "Admiral Naximov"la yük gəmisi "Pyotr Vasev"in toqquşması nəticəsində böyük gərginlik yaranmışdı. Yaranan vəziyyət sovet rəhbərliyini təşvişə salmışdır. Qəza nəticəsində yüzlərlə sərnişin həlak olmuşdu. Bundan narahat olan Siyasi Büro vəziyyətin sakitləşdirilməsi, onun nəticələrinin aradan qaldırılması üçün Heydər Əliyevin rəhbərliyi ilə dövlət komissiyası yaratmışdı. Hadisə yerinə gələn Ulu Öndər faciədə həlak olan insanların yaxınları və xəsarət alanlarla tez-tez görüşür, dövlət komissiyasının üzvlərinin cavabdeh olduqları məsələləri yerinə yetirmələrinə nəzarət edirdi. Komissiyadakı işi zamanı Heydər Əliyevin diqqətini qəza nəticəsində həlak olanlardan birinin ölümü haqqında arayışı cəlb edir. Arayışda həlak olanların ölüm səbəbi kimi "boğulma" qeyd edilmişdi. Ulu Öndərin 400-dən artıq blankda ölüm səbəbinin dəyişdirilməsini tələb etməsi ilə oraya "ölümə "Admiral Naximov" teploxodunun qəzaya uğraması səbəb olub" sözləri əlavə olunur. Bununla da Ulu Öndər hər zaman xüsusi əhəmiyyət verdiyi ədaləti bərpa edir.

Heydər Əliyevin fövqəladə hallar zamanı insan təhlükəsizliyi faktoruna xüsusi diqqət yetirməsi, obyektivliyin və həqiqətin insanlara çatdırılması istiqamətindəki möhkəm iradəsi sovet rəhbərliyinin ona qarşı qısqanclığını daha da artırırdı. 1986-cı il aprelin 26-da Ukraynanın paytaxtı Kiyev şəhəri yaxınlığında yerləşən Çernobıl AES-də baş vermiş güclü partlayış böyük fəlakətlə nəticələndi. Həmin dövrdə keçmiş SSRİ-yə rəhbərlik edən Mixail Qorbaçov hər vəchlə Çernobılda dəhşətli hadisənin baş vermədiyini və bunun adi qəzalardan biri olduğunu sübut etməyə çalışırdı. Bunun üçün o, qəzaya yaxın olan Kiyevdə 1 May bayramının təntənəli şəkildə keçirilməsi barədə göstəriş verməklə dünyanı aldatmaq istəyirdi. Ümummilli Lider Heydər Əliyev Siyasi Büronun yeganə üzvü idi ki, faciənin gizlədilməsinə qarşı çıxmış və baş vermiş hadisənin xalqa doğru-dürüst çatdırılmasını təkid etmişdir. Ulu Öndər haqlı olaraq bildirmişdi ki, yalnız bu yolla və beynəlxalq yardım vasitəsilə qəzanın zərərini azaltmaq, nəticələrini aradan qaldırmaq olar. Çernobıl qəzasının nəticələrinin aradan qaldırılması məqsədilə yaradılan fövqəladə komissiyanın rəhbəri Heydər Əliyev bu dövrdə də uzaqgörən, müdrik, səriştəli lider olduğunu nümayiş etdirdi. Fəlakət bölgəsində xilasetmə işləri başlayan andan Dahi Öndərimiz bu mürəkkəb problemin həllində əsl fədakarlıq və yüksək rəhbərlik qabiliyyəti göstərdi.

Məlum olduğu kimi, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda çox mürəkkəb vəziyyət yaranmış, ölkə real fəlakətlə üz-üzə qalmışdı. Ulu Öndər 1990-cı ildə Naxçıvana gələrək son dərəcə ağır vəziyyətdə olan bu qədim diyarı mətanətlə erməni təcavüzündən qorudu, əsl nicat yoluna çıxararaq onun hərtərəfli inkişafını təmin etdi. Qeyri-sabit, qarşıdurmanın ifrat həddə çatmış olduğu, müstəqilliyin itirilmək təhlükəsi ilə üzləşdiyi bir dövrdə - 1993-cü ilin iyun ayında xalqın tələb və təkidi ilə hakimiyyətə yenidən qayıdan, "Ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyən Ulu Öndər Azərbaycanı daxili və xarici düşmənlərin caynağından özünün fitri istedadı, dərin zəkası, qətiyyəti, uzaqgörənliyi ilə qurtardı, ölkəni qısa müddətdə dayanıqlı, dinamik və təhlükəsiz inkişaf yoluna çıxardı.

Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra digər sahələrdə olduğu kimi, təbii və texnogen fəlakətlərdən əhalinin etibarlı şəkildə mühafizəsinin təşkili üçün də konkret addımlar ataraq Azərbaycan vətəndaşlarının təhlükəsizliyinin təminatı məsələsini daim diqqət mərkəzində saxlayıb. Mülki müdafiə sisteminin dinamik inkişafını və təkmilləşdirilməsini təmin edən Ulu Öndər Heydər Əliyev onun hüquqi aspektlərini də müəyyənləşdirib. Ümummilli Lider fəlakətin vaxtında qarşısının alınmasına, qabaqlayıcı tədbirlərin görülməsinə xüsusi diqqət yetirilməsini, uyğun qurumlardan bununla bağlı öz işlərini düzgün qurmağı tələb edərək fövqəladə hal baş verən əraziyə şəxsən özü gedir, ciddi tapşırıqlarını verirdi. Azərbaycanda fövqəladə hallar sahəsində etibarlı şəbəkənin yaradılması ideyası ilə çıxış edən Ulu Öndər Heydər Əliyev həyata keçirilməsi vacib olan təxirəsalınmaz vəzifələri müəyyənləşdirib hökumətin fövqəladə hallara hazırlıq məsələsini gündəliyə gətirərək, müdrik uzaqgörənliklə Azərbaycanda yaradılmasını nəzərdə tutduğu qurumun əsas istiqamətlərini bəyan etmişdi.

Müstəqillik illərində Ümummilli Lider Heydər Əliyevin qayğısı nəticəsində insanların təhlükəsizliyinin təminatında xüsusi rol oynayan yanğın təhlükəsizliyi xidməti üçün milli kadrların hazırlanması probleminin həllinə nail olunub. Belə ki, Nazirlər Kabinetinin 29 may 1996-cı il tarixli Qərarı ilə Yanğından Mühafizə Tədris Mərkəzinin bazasında "Yanğına qarşı mühafizənin təşkili və texnikası" ixtisası üzrə xüsusi orta-ixtisas təhsili verən Bakı Yanğın Texniki Məktəbi yaradılıb.

Həmçinin yanğın təhlükəsizliyi məsələlərinin hüquqi tənzimlənməsi məqsədilə Azərbaycan Respublikası Milli Məclisinin 10 iyun 1997-ci il tarixli qərarı ilə "Yanğın təhlükəsizliyi haqqında" qanun qəbul edilib və 1997-ci il 25 iyunda Azərbaycan Respublikasının Prezidenti "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə fərman imzalayıb. Beləliklə, müstəqil Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi və dövlət yanğın nəzarəti sisteminin hüquqi əsasları yaradılıb.

Qanunvericilik bazasının möhkəmləndirilməsi məqsədilə Ümummilli Lider Heydər Əliyev 30 dekabr 1997-ci ildə Azərbaycan Respublikasının "Mülki Müdafiə haqqında" qanununu təsdiq edib və onun tətbiq edilməsi barədə 18 aprel 1998-ci il tarixli müvafiq fərman imzalayıb. Beləliklə, mülki müdafiənin bir sistem olaraq inkişaf etməsinə zəmin yaradılıb. Bu sahədə hüquqi və fiziki şəxslər qarşısında duran vəzifələr müəyyən olunub.

2000-ci ilin mart ayında Bayıl yamacında baş verən torpaq sürüşməsi ərazidə ciddi təhlükə və narahatçılıq yaratmışdı. Torpaq sürüşməsindən sonra əraziyə baxış keçirən Heydər Əliyev Bayıl yamacında torpaq sürüşməsi nəticəsində yaranmış vəziyyətin aradan qaldırılması məqsədilə həmin zonada, eləcə də "Əbədi məşəl" abidəsi ətrafında aparılan bərpa işlərinin sürətləndirilməsi üçün tapşırıqlar vermiş, ərazidə problemin köklü həllini önə çəkmişdir.

Həmin ilin noyabr ayında Azərbaycanda baş vermiş zəlzələ nəticəsində dəyən ziyanın aradan qaldırılmasına həsr olunan müşavirədə Ümummilli Lider müvafiq qurumlara ciddi tapşırıqlarını vermişdir. Ulu Öndər Heydər Əliyevin 28 noyabr 2000-ci il tarixli sərəncamı ilə Bakı və Sumqayıt şəhərlərində, o cümlədən Azərbaycan Respublikasının bir sıra rayonlarında baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması üçün maliyyə vəsaiti ayrılmışdır.

Bu gün Ulu Öndərin elmi cəhətdən əsaslandırılmış strategiyasına və siyasi xəttinə sadiq qalan Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında qalib Azərbaycan dövləti əhalinin təhlükəsiz şəraitdə yaşaması üçün lazımi tədbirləri uğurla həyata keçirir. Dövlətimizin başçısının uğurla gerçəkləşdirdiyi islahatların bir istiqaməti də məhz əhalinin təhlükəsiz şəraitdə yaşaması üçün lazımi tədbirlərin görülməsinə yönəlib. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ölkə ərazisində fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında çevikliyin təmin olunması, əhalinin mühafizəsi üçün atdığı addımlar onu göstərir ki, dövlətimizin başçısı bu məsələlərə çox ciddi və həssas yanaşır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il dekabarın 16-da imzaladığı müvafiq sərəncamla mövcud sistemdə mütərəqqi dəyişiklik edilərək, ölkəmizdə təbii və texnogen fövqəladə hadisələrlə mübarizənin mərkəzləşdirilmiş qaydada sistemli təşkili məqsədilə Fövqəladə Hallar Nazirliyinin yaradılması ölkə vətəndaşlarının təhlükəsizliyinə yönələn ciddi addımlardandır.

Ulu Öndər Heydər Əliyevin "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır" müdrik kəlamını öz fəaliyyət prinsipi kimi qəbul edən Fövqəladə Hallar Nazirliyi ötən dövr ərzində dövlət başçısının diqqət və qayğısı sayəsində ən müasir texnika və avadanlıqlara, peşəkar kadr heyətinə malik mobil bir quruma çevrilib. Nazirlik ötən illər ərzində istər ölkə ərazisində, istərsə də ölkə hüdudlarından kənarda baş vermiş mürəkkəb fövqəladə hadisələrlə hər zaman uğurlu mübarizə nümunəsi göstərib.

Yeri gəlmişkən, bir məsələni də xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva daim təbii və texnogen hadisələr zamanı zərərçəkən insanların yanında olur, onların problemlərinin həllinə xüsusi həssaslıqla, diqqət və qayğı ilə yanaşır, operativ olaraq irimiqyaslı hadisələrin baş verdiyi bölgələrə səfərləri zamanı fəlakətin nəticələrinin qısa müddətdə aradan qaldırılması üçün dövlətin bütün resurslarını səfərbər edirlər.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayan ölkəmizin qazandığı misilsiz nailiyyətlər Ulu Öndər Heydər Əliyevin onilliklər ərzində gələcək inkişaf üçün formalaşdırdığı möhkəm təməllərdən güc alır. Dövlətimizin başçısının yüksək sərkərdəlik məharəti ilə xalqımıza bəxş etdiyi Qarabağ zəfər sevincini böyük qürur hissi ilə yaşayırıq. Vətən müharibəsi misli görünməmiş, əzəmətli bir qəhrəmanlıq dastanı, Ulu Öndər Heydər Əliyev siyasi kursunun təntənəsidir. Bu gün Azərbaycan həm də işğaldan azad edilmiş ərazilərdə sürətli bərpa, yenidənqurma və quruculuq işləri ilə dünyanı heyrətləndirir. Vətən müharibəsində hərbi gücünü dünyaya göstərən Azərbaycan bu gün işğaldan azad olunmuş ərazilərdə görülən möhtəşəm işlərlə iqtisadi qüdrətini nümayiş etdirir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birlikdə Qarabağa və Şərqi Zəngəzura ardıcıl səfərləri bölgənin dirçəlişini daha da sürətləndirib. Bugünkü qalib Azərbaycan Ümummilli Liderin görmək istədiyi Azərbaycandır. Böyük qurtuluşdan başlanan yolu möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan, məğlubedilməz sərkərdə cənab İlham Əliyev düşmən üzərində parlaq qələbə ilə davam etdirərək, ərazi bütövlüyümüzü bərpa edib, ata vəsiyyətini yerinə yetirib. Bugünkü müstəqil Azərbaycan tarixinin heç bir mərhələsində olmadığı qədər güclüdür. Böyük qayıdış proqramı həm Qarabağımızın və Şərqi Zəngəzurun, həm də geniş mənada ölkəmizin yeni işıqlı sabahlarından xəbər verir. Qısa müddətdə ölçüyəgəlməz dərəcədə görülən işlərin hamısı Azərbaycanın daxili imkanları hesabına həyata keçirilir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu Ümummilli Liderin müdrikliyə əsaslanan həyat fəlsəfəsini, xalqa xidmət missiyasının əbədiyaşarlığını təmin edən mühüm ideoloji-humanitar mərkəz kimi, dahi rəhbərin ideyalarının reallaşdırılmasında, zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması istiqamətində əvəzsiz xidmətlər göstərir. Mehriban xanım Əliyevanın fəal təşəbbüsləri ilə Qarabağda və Şərqi Zəngəzurda reallaşdırılan layihələr Azərbaycan dövlətinin milli gücünün artmasında, müstəqilliyimizin möhkəmləndirilməsində mühüm rola malikdir.

Ümummilli Liderin qurub-yaratdıqları, müdrik ideyaları bütün dövrlər üçün daimidir, aktualdır. Heydər Əliyev irsi yüz illər boyu Azərbaycan xalqına yol göstərəcək, ölkəmizin davamlı inkişafına möhtəşəm töhfəsini verəcək. Ulu Öndərin ideyalarından güc alan Azərbaycanın müstəqilliyi Heydər Əliyevin dediyi kimi, əbədidir, dönməzdir və sarsılmazdır! Biz dünyaya Heydər Əliyev zirvəsindən, müstəqil, bütöv Azərbaycandan baxırıq.

*Azərbaycan Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, "Heydər Əliyev bütün dövrlərdə bütün sınaqlardan şərəflə çıxmışdır. Bütün mübarizələrdə - istər daxili, istər beynəlxalq müstəvidə, bütün dövrlərdə doğma Vətənini müdafiə etmiş və qələbə qazanmışdır. Əgər biz tarixə bir daha nəzər salsaq, görərik ki, Heydər Əliyevsiz dövrlər Azərbaycan üçün böyük fəlakətlərlə nəticələndi. Yaşadığımız indiki dövr Azərbaycan üçün uğurludur və bunun da tək səbəbi var. Çünki bu gün Heydər Əliyev siyasəti yaşayır, onun ideyaları yaşayır, onun qurduğu müstəqil dövlət yaşayır və güclənir".*

**Kəmaləddin HEYDƏROV,**
***Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik***



# Heydər Əliyev İli 2023

## Müasir dövlət, güclü iqtisadiyyat və inklüziv cəmiyyət hədəfi artıq reallığa çevrilib











Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş pul nişanlarının Mərkəzi Bank tərəfindən təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov mərasimdə çıxış edərək, Ulu Öndərin iqtisadi inkişaf strategiyasından danışıb. Qeyd edib ki, Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklərin əsası qoyuldu, ölkə iqtisadiyyatı labüd fəlakətdən, hərcmərclikdən xilas edildi. İndi Azərbaycan iqtisadiyyatı sürətli inkişafı ilə seçilir. Azərbaycanın strateji valyuta ehtiyatları 2003-cü illə müqayisədə bu ilin aprel ayına 41 dəfə artaraq 65,9 milyard ABŞ dollarına çatıb. Son illər dünyada baş verən iqtisadi və siyasi çağırışlara baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik təmin edilib, maliyyə-bank sisteminin möhkəmləndirilməsinə nail olunub.

Mərkəzi Bankın sədri Taleh Kazımov Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərin dövlətçilik tariximizdəki yerindən söz açıb. Qeyd edib ki, onun ölkəyə rəhbərliyinin birinci dövründə bugünkü Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyinin təməli qoyuldu. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin növbəti dövründəki mürəkkəb şəraitdə isə qısa müddətdə milli həmrəylik və ictimai-siyasi sabitlik bərpa olundu. İctimai-siyasi sabitlik və uzaqgörən xarici siyasət hesabına Azərbaycan dünyanın iri investorları üçün cəlbedici ölkəyə çevrildi. Belə bir çətin şəraitdə iqtisadi sahədə əsas prioritet vəzifə olan makroiqtisadi sabitlik bərpa olundu, inflyasiya, büdcə kəsiri dəfələrlə azaldıldı, məzənnə sabitləşdirildi, manat ölkədə yeganə ödəniş vasitəsinə çevrildi. Digər sahələrdə olduğu kimi, maliyyə-bank sisteminin formalaşması və inkişafında da dönüş nöqtəsi oldu. Bank sistemi sağlamlaşdırıldı, ciddi konsolidasiya və restrukturizasiya proseslərinə başlandı. Maliyyə stabilliyinin təmin edilməsi ilə əhalinin bank sisteminə inamı bərpa olundu.

Bildirilib ki, bütün bu addımlar sayəsində müasir dövlət, güclü iqtisadiyyat və inklüziv cəmiyyət hədəfi bu gün artıq reallığa çevrilib. Heydər Əliyev dövlətçilik məktəbi müstəqil Azərbaycanın dayanıqlı inkişafının daim ideoloji əsası olacaqdır.

Sonra "Heydər Əliyev - Vətənə, xalqa həsr edilən ömür" filmi nümayiş etdirildi.

Daha sonra çıxış edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, "AzerGold" QSC-nin İdarə heyətinin sədri Zakir İbrahimov və Azərbaycan Banklar Assosiasiyasının (ABA) prezidenti Zakir Nuriyev ölkəmizin inkişaf strategiyasının işlənməsində və həyata keçirilməsində Heydər Əliyevin rolundan bəhs etdilər.

Çıxışlardan sonra yeni pul nişanları barədə videoçarx təqdim olundu.

Taleh Kazımov Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş pul nişanlarının tədavülə buraxılmasını elan etdi.

Qeyd olundu ki, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Mərkəzi Bankı ölkəmizin tarixində ilk dəfə olaraq yüksək əyarlı Azərbaycan qızılından hazırlanmış investisiya məqsədli pul nişanlarının mayın 10-dan etibarən tədavülə buraxılmasını elan edib. Eyni zamanda Mərkəzi Bank ənənəsinə sadiq qalaraq Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik tarixinin əbədiləşdirilməsi məqsədilə yubiley pul nişanlarını da tədavülə buraxır. Bu pul nişanları xüsusi dövlət tədbirləri üçün nəzərdə tutulub.

Bu yubiley və investisiya məqsədli pul nişanları Böyük Britaniyanın "The Royal Mint" şirkətində ən yüksək beynəlxalq standartlara uyğun istehsal edilib.

Pul nişanlarının əsas dizayn elementləri kimi ön tərəfində Ulu Öndərin portretinin profil görüntüsü, imzası və "Heydər Əliyev" yazıları, arxa tərəfində isə "Azərbaycan Respublikası" sözləri, Dövlət Gerbinin təsviri, pul nişanının nominalı və milli naxışlar əks olunub.

Ölkəmizdə ilk dəfə olaraq tədavülə buraxılan investisiya məqsədli pul nişanlarının satışı və geri alışı Mərkəzi Bank tərəfindən həyata keçiriləcək. Bu barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

Beynəlxalq təcrübəyə uyğun olaraq bu pul nişanları uzunmüddətli investisiya aləti və əhalinin yığım vasitəsi kimi istifadə olunması məqsədilə yüksək əyarlı qızıldan hazırlanıb və buraxılış limitinə məhdudiyyət qoyulmadan tələbə uyğun istehsal edilərək tədavülə buraxılır.

İnvestisiya məqsədli pul nişanları 1 Oz (31.1 qr.), 1/2 Oz (15.55 qr.), 1/4 Oz (7.78 qr.), 1/10 Oz (3.11 qr.) çəkilərdə tədavülə buraxılıb.

Yubiley və investisiya məqsədli pul nişanları nominal dəyərləri ilə ölkə ərazisində qanuni ödəniş vasitəsidir.

## Bakıda "Müasir Azərbaycan memarlığında Heydər Əliyev fenomeni" adlı konfrans keçirilib

Mayın 5-də Azərbaycan Respublikası Memarlar İttifaqı, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Beynəlxalq Memarlıq Akademiyasının Bakı Akademik Mərkəzinin təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin dəstəyi ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Müasir Azərbaycan memarlığında Heydər Əliyev fenomeni" mövzusunda elmi-praktik konfrans keçirilib.






AZƏRTAC xəbər verir ki, əvvəlcə konfrans iştirakçıları Fəxri xiyabanı ziyarət edərək Ümummilli Lider Heydər Əliyevin və akademik Zərifə Əliyevanın xatirəsini yad ediblər və məzarları üzərinə əklillər və gül dəstələri qoyublar.

Tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və respublikanın tanınmış memarları iştirak ediblər.

Konfrans iştirakçıları və qonaqlar əvvəlcə "Four Seasons" hotelinin foyesində təşkil edilmiş "Müasir Azərbaycan memarlığında Heydər Əliyev fenomeni" adlı sərgi ilə də tanış olublar.

Tədbirin açılışında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransı açan Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri, Beynəlxalq Memarlıq Akademiyasının Bakı Akademik Mərkəzinin rəhbəri Elbay Qasımzadə tədbirin müstəsna əhəmiyyətini vurğulayaraq, ən yüksək səviyyədə təşkil olunduğunu qeyd edib.

"Müasir Azərbaycan memarlığında Heydər Əliyev fenomeni" adlı məruzə ilə çıxış edən E.Qasımzadə Heydər Əliyevin memarlıq sənətinin təbliğində və inkişafında böyük rolunu vurğulayıb: "1993-cü ildə xalq tərəfindən dəvət olunmuş Ulu Öndər Azərbaycanı vətəndaş müharibəsindən, ölkənin bölünməsi təhlükəsindən, siyasi və iqtisadi böhrandan qurtardı. Onun şəxsi nüfuzuna, mətinliyinə, uzaqgörənliyinə və cəsarətinə görə xaricdən olan təzyiqlər zərərsizləşdirildi və Azərbaycanda quruculuq işləri başlandı. Azərbaycan memarlığı yeni intibah dövrünü yaşadı. Azərbaycana rəhbərliyi illərində Ulu Öndər Heydər Əliyev memarlar qarşısında milli memarlıq irsi elementlərini tətbiq etmək tələbini qoymuşdu".

Memarlar İttifaqının İdarə Heyətinin sədri deyib ki, milli memarlığı dərindən bilən, ona böyük hörmətlə yanaşan Ümummilli Lider partiya iyerarxiyasında ən yüksək rütbədə olmasına baxmayaraq, sovet ideologiyasına zidd addım ataraq memarlıq nümunələrimizdə milli elementlərdən istifadə etmək tapşırığını vermişdi. Məhz dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyəti dövründə bir sıra əhəmiyyətli ictimai binalar inşa olunub, mənzil tikintisi sahəsində inqilabi dəyişikliklər baş verib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə respublikada şəhərsalma və memarlıq sahəsinin keyfiyyətcə yeni erasının başlandığını və Ulu Öndərin bu sahədə siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, ölkənin işğaldan azad edilmiş əraziləri də daxil olmaqla bütün regionlarında şəhərsalmanın planlı və sistemli aparıldığını, milli memarlığın zəngin ənənələr əsasında müasir tələblər və qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla inkişaf etdirildiyini bildirib.

Daha sonra Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, Azərbaycan Memarlar İttifaqının 1-ci katibi Gülçöhrə Məmmədovanın "Heydər Əliyev və Azərbaycanda memarlıq fəaliyyəti", Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini İlqar İsbatovun "Azərbaycan memarlığında və şəhərsalmasında Heydər Əliyevin rolu" mövzusunda məruzələri dinlənilib.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəis müavini Könül Cəfərova isə "Heydər Əliyev və Azərbaycanın mədəni irsi" mövzusunda çıxış edib. Məruzə Ümummilli Liderin memarlıq sənətinə göstərdiyi diqqət və qayğını əks etdirən slaydlarla müşayiət olunub.

Konfransda, həmçinin Azərbaycan Memarlıq və İnşaat Universitetinin dosenti Şəhla Qəhrəmanovanın "Azərbaycanın müasir şəhərsalması Heydər Əliyevin sosial siyasətinin davamı kimi", professor Rayihə Amənzadənin "1970-80-ci illərdə Azərbaycan memarlığının inkişafı", dosent Nərmin Yusiflinin "Müasir şəhərin ictimai məkanlarının inkişaf xüsusiyyətləri", doktorant Şeyda Novruzzadənin "Dağlıq Şirvan iqtisadi rayonunun şəhər yaşayış məntəqələrinin inkişafının sosial-mədəni problemləri", Fövqəladə Hallar Nazirliyinin Əsaslı Tikinti İdarəsinin rəisi Rüfət Ağazadənin "Müasir Azərbaycan tarixinin memarı", Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş idarəsinin sektor müdiri Aytac Əkbərlinin "Tarixi mərkəzləri olan şəhərlərdə şəhərsalma çağırışları və məqsədləri", doktorant Nahidə Zeynalovanın "Azərbaycanın müasir şəhərsalmasında modern informasiya sistemlərinin təşkili" mövzularında məruzələri maraqla qarşılanıb.

## Ulu Öndərin 100 illik yubileyi münasibətilə AHİK yeddi min ailəyə ərzaq yardımı edib

Mayın 5-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın xilaskar oğlu Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə respublikanın rayonlarında 4500 aztəminatlı ailə, o cümlədən şəhid və qazi ailələri üçün ərzaqla dolu avtomobil karvanı yola salınıb.



AZƏRTAC xəbər verir ki, bundan başqa, Naxçıvan Muxtar Respublikasında yaşayan həmin kateqoriyadan olan 2500 ailəyə də ərzaq göndərilib. AHİK-dən başqa, sahə həmkarlar ittifaqları da bu ərəfədə bütün bölgələr üzrə qeyd edilən kateqoriyadan olan ailələrə ərzaq yardımları göstərirlər.

Qeyd edək ki, bununla da sovqat göndərilən ailələrin ümumi sayı 65 minə çatıb.

AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev jurnalistlərə müsahibəsində bildirib ki, vətəndaşların qayğısına qalmaq, onların üzləşdiyi çətinlikləri aradan qaldırmaq, həmçinin şəhid ailələrinə və qazilərə, müharibə iştirakçılarına, aztəminatlı ailələrə qayğı ilə yanaşmaq, lazımi maddi və mənəvi dəstək göstərmək dövlətimizin sosial siyasətinin mühüm tərkib hissəsidir. Dövlətimizlə bərabər, ölkəmizin aparıcı ictimai təşkilatları da bu cür humanitar layihələrə dəstək verir, həmin kateqoriyalardan olan insanlara qayğı göstərirlər. Hər bir sahədə olduğu kimi, Heydər Əliyev Fondu bu istiqamətdə də nümunəvi fəaliyyəti ilə fərqlənir. Belə ki, fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə şəhid ailələrinə, qazilərə, aztəminatlı ailələrə bayramlarda və dövlətimiz üçün əlamətdar olan günlərdə sovqatlar, hədiyyələr göndərilir, onlar üçün bayram süfrələri təşkil olunur. Azərbaycan həmkarlar ittifaqları da belə sosial layihələrin əsas iştirakçılarındandır.

Səttar Möhbalıyev xatırladıb ki, İcraiyyə Komitəsinin qərarları əsasında 2020-ci ilin aprelində 3900, 2021-ci ilin martında 3900, mayında 4000, 2022-ci ilin martında 4 065, noyabrında 4 500, dekabrında 4 500, 2023-cü ilin martında isə 4 650 şəhid ailələri və qazilər, həmçinin aztəminatlı ailələr üçün ərzaq göndərilib. Eləcə də Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasına orada yaşayan həmin kateqoriyadan olan ailələrə sovqat göndərilməsi üçün hər dəfə maliyyə vəsaiti ayrılıb.

"Budəfəki ərzaq yardımı Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təşkil edilib. Qeyd edim ki, Ulu Öndər doğma Azərbaycana rəhbərlik etdiyi illərdə titanik fəaliyyəti nəticəsində ölkəmiz tənəzzüldən intibaha, bataqlıqdan işıqlı sabaha çıxmışdı. Heydər Əliyev xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir", - deyə AHİK sədri qeyd edib.



# Heydər Əliyev İli 2023

# Ulu Öndər təhsilin inkişafı üçün misilsiz xidmətlər göstərib



Ümummilli Liderimizin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərə nəzər yetirdikdə aydın görmək olur ki, dahi şəxsiyyət canından çox sevdiyi Vətəninin və doğma xalqının intibaha, tərəqqiyə və inkişafa ehtiyacının daha çox olduğu vaxtlarda siyasi rəhbərliyə başlamışdır. Əminliklə söyləmək olar ki, əslində, Ulu Öndərin həyat missiyası məhz Azərbaycanda milli intibahı bərqərar etmək olmuşdur.

Müstəqil Azərbaycanın qurucusu olan dahi şəxsiyyət gözəl bilirdi ki, qüdrətli dövlət və yüksək rifah cəmiyyəti qurmaq üçün bütün sahələrdə təkamülə nail olmaq, insan kapitalını inkişaf etdirmək və davamlı tərəqqiyə nail olmaq olduqca vacibdir. Ulu Öndər müəllifi olduğu bu konsepsiyanın reallaşdırılmasının əsas və həlledici şərtlərindən biri kimi məhz təhsili nəzərdə tutmuşdur.

Heydər Əliyev Azərbaycanın dünya birliyində layiqli yer tutması və qlobal miqyasda davamlı artan rəqabətə tab gətirə bilməsi üçün təhsilin inkişafına hər zaman prioritet əhəmiyyət vermişdir. Bir neçə faktı qeyd etmək kifayətdir ki, dahi şəxsiyyətin təhsilə və təhsilin inkişafına verdiyi önəmi bariz şəkildə nümayiş etdirmək mümkün olsun.

Ulu Öndərin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycanın şəhər və qəsəbələrində 700-ə qədər orta ümumtəhsil məktəbi tikilib istifadəyə verilmişdir. Həmin illərdə Azərbaycanda olan ali təhsil müəssisələrinin sayı 12-dən 18-ə yüksəlmişdir. Respublikamızda ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı 70 mindən 100 minə çatdırılmışdır.

Məhz həmin illərdə uzaqgörən siyasətçi Azərbaycanda milli hərbi təhsilin inkişafı ilə bağlı tarixi addımlar atmış, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ölkəmizdə açılmasına nail olmuşdur.

Ulu Öndərimizin təhsil sahəsindəki ən böyük uğurlarından biri də həmin dövrdə hər il orta hesabla 1000 nəfər istedadlı Azərbaycan gəncinin ali təhsil almaq üçün keçmiş SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrinə göndərilməsi olmuşdur.

Təsəvvür etmək çətin deyil ki, milli respublikalarda intibahın qarşısının alınmasında maraqlı olan sovet rejimi dönəmində buna nail olmaq nə qədər çətin idi. Məhz bu addım sonralar respublikamızda milli kadr potensialının formalaşdırılmasında həlledici rol oynamışdır. Heydər Əliyev cəsarətinin nəticəsi olan bu addım faktiki olaraq Azərbaycanda milli elitanın yaranmasını və bununla da milli intibahın bərqərar olmasını mümkün etmişdir. Belə ki, Ulu Öndərimiz tərəfindən həmin dövrdə ali təhsil almaq üçün nüfuzlu universitetlərə göndərilən şəxslərin əksəriyyəti müstəqillik illərində yenə də Heydər Əliyevin dəvəti ilə milli dövlət quruculuğunda fəal iştirak etmişlər.

Keçmiş SSRİ rəhbərliyində təmsil olunduğu dövrdə Ümummilli Liderimiz digər sahələrə olduğu kimi, təhsil sahəsinə də dövlət dəstəyinin yönəldilməsinə nail olmuşdur. Məhz dahi şəxsiyyətin sayəsində Azərbaycanın təhsil sahəsində müvafiq göstəriciləri ittifaq respublikaları arasında əhəmiyyətli dərəcədə yaxşılaşmışdı.

1993-cü ildə xalqın tələbi ilə yenidən Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev dövlət quruculuğu prosesində təhsili önəmli istiqamətlərdən biri kimi bəyan etmişdir. "Təhsil millətin gələcəyidir" kimi dahiyanə fikirlərin müəllifi olan Ulu Öndər 1988-1993-cü illərdə tənəzzül dövrünü yaşamış milli təhsilimizi faktiki olaraq yenidən qurmağı və təkamül yoluna çıxarmağı bacarmışdır.

1999-cu il iyunun 15-də Heydər Əliyev təhsilimiz üçün həlledici əhəmiyyət kəsb edən tarixi bir sərəncama imza atmışdır. Həmin sərəncamla "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" təsdiq edilmişdir.

Bununla da, Ulu Öndər təhsilimizin inkişafında yeni bir eranın başlanğıcını qoymuşdu. Qeyd olunan sərəncamla təsdiq olunan proqram ölkə təhsilinin bütün sahə və səviyyələrinin tamamilə yeni əsaslar üzərində qurulması, yeni normativ-hüquqi bazanın yaradılması, yeni təhsil məzmununun formalaşdırılması, kadr təminatının yaxşılaşdırılması və təhsil sisteminin maddi-texniki bazasının yenidən qurulması kimi ən vacib istiqamətlərdə islahatların aparılmasını nəzərdə tutmuşdur.

Məhz bundan sonra təhsilimiz milli xarakter almışdı. Bu sərəncam və dahi şəxsiyyətin qəbul etdiyi digər çoxsaylı qərarlar milli təhsilimizin əsas missiyasını - milli-mənəvi dəyərlərə bağlı olan savadlı, bilikli və bacarıqlı milli kadrların yetişməsini təmin etmişdi. Bununla da, Ümummilli Liderimiz təhsilin milli intibahın zəmanəti olmasını növbəti dəfə bəyan etmişdi.

"Mən yer üzündə müəllimdən yüksək ad tanımıram" deyən Ulu Öndər hər birimizə yaxşı təhsil almaqla bərabər, məktəbə və müəllimə dəyər verməyi dahiyanə şəkildə nümayiş etdirmişdir.

Sevindirci haldır ki, təhsilin ən böyük himayədarı olan Heydər Əliyevin ideyalarına sadiq olan möhtərəm Prezident İlham Əliyev təhsili yeni inkişaf mərhələsinə yüksəltmişdir. Cənab Prezident 2013-cü il oktyabrın 24-də çox önəmli bir sərəncama imza atmışdır. Həmin sərəncamla "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir.

Milli təhsilimizin inkişafında yeni keyfiyyət mərhələsinə start verən bu tarixi sənəd yeni təhsil məzmunu, səriştəli təhsilverənlər, yeni idarəetmə mexanizmləri, ömürboyu təhsili təmin edən müasir infrastruktur və təhsilin yeni maliyyələşmə mexanizminin tətbiqi olmaqla beş əsas istiqaməti əhatə etmişdir. Bununla da, milli təhsil sistemimizin Avropanın və dünyanın inkişaf etmiş ölkələrinin müasir və beynəlxalq təhsil standartlarına uyğunlaşdırılması konsepsiyasının əsası qoyulmuşdur.

Möhtərəm Prezident tərəfindən təsdiq olunmuş "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda təhsilin prioritet önəmi vurğulanmış və inkişafına dair əsas hədəflər müəyyən edilmişdir.

Bu gün məktəb tikintisi, müasir təhsil infrastrukturunun yaradılması, təhsilə əlçatanlığın artırılması, gənclərin xaricdə təhsili, müəllimlərin sosial rifahının yüksəldilməsi, təhsilin rəqəmsallaşması və digər məsələlər təhsilimizin yeni inkişaf mərhələsini xarakterizə edən əsas prioritetlərdir.

Milli təhsilimiz dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunub. Təhsilin inkişafında Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun və həmin fondun Prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın müstəsna xidmətlərini xüsusi qeyd etmək lazımdır.

Ümummilli Liderin təhsilin inkişafında və bununla da Azərbaycanda milli intibahın güclənməsində misilsiz xidmətləri barədə nə qədər yazılsa da yenə azdır.

Dahi şəxsiyyətin titanik fəaliyyətinin nəticələrindən faydalanan təhsil işçiləri onun əziz xatirəsini böyük ehtiramla anırlar. Biz Ulu Öndərimizin zəngin irsini araşdırmağı və bu irsi gənc nəsil və geniş ictimaiyyət arasında təbliğ etməyi əsas vəzifələrimizdən biri hesab edirik.

***Şahin BAYRAMOV,***
***Mingəçevir Dövlət Universitetinin rektoru***

Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar respublikada Ulu Öndərin 100 illik xatirəsinə həsr olunmuş silsilə tədbirlər, konfranslar, eləcə də idman yarışları keçirilməkdədir. Azərbaycan Minifutbol Federasiyası da Ümummilli Liderin yubileyinə töhfə olaraq ölkəmizdə ilk dəfə minifutbol üzrə 10 ölkənin iştirakı ilə "Heydər Əliyev - 100" beynəlxalq turniri keçirir.

Beynəlxalq səviyyəli yarışın necə təşkil olunması, o cümlədən aparılan danışıqlar, hazırlıq prosesi, yüksəksəviyyəli evsahibliyi, ən nahayət, qarşıdakı hədəflərlə bağlı Azərbaycan Minifutbol Federasiyasının fəxri prezidenti, "Zirə" Futbol Klubunun Müşahidə Şurasının sədri Orxan Məmmədovla görüşüb söhbətləşdik.

# Minifutbol tarixində Azərbaycan imzası

## Orxan MƏMMƏDOV: "Ulu Öndərin xatirəsinə həsr edilən beynəlxalq turnir əsl futbol bayramına çevrildi"



*- Azərbaycan idmançılarının son dövrlərdə əldə etdiyi nailiyyətlər, Olimpiya hərəkatındakı uğurlarımız Ulu Öndər Heydər Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının, müəyyənləşdirdiyi strategiyanın nəticəsi hesab etmək olarmı?*

- Bu il ölkəmizdə Ümummilli Lider Heydər Əliyevin yubileyi ilə bağlı silsilə tədbirlər təşkil olunur. Azərbaycan Minifutbol Federasiyası olaraq, biz də özümüzə borc bildik ki, beynəlxalq turnir keçirək və yarışa müxtəlif ölkələrdən komandalar dəvət edək. Beynəlxalq Minifutbol Federasiyası ilə danışıqlar apardıq və onlar da bu ideyanı dəstəklədilər. Artıq turnir davam edir. Turniri Gənclər və İdman Nazirliyinin dəstəyi ilə keçiririk. Müxtəlif ölkələrdən 10 milli komanda turnirdə gücünü sınayır.

İl ərzində minifutbol üzrə müxtəlif yarışlar keçirilir. Milli komandalar bu yarışlarda güclərini sınayırlar. Biz də istədik ki, beynəlxalq turnirə evsahibliyi edək. Federasiyanı yaradanda, əsasən də Avropa çempionatının qalibi olduqdan sonra bu barədə düşünürdük. Çox sevindirici haldır ki, bu turnir Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Hazırlıqlarımız bu istiqamətdə getdi və çox mötəbər bir turnir ərsəyə gəldi. Yəqin ki, həm azarkeşlər, həm də minifutbol həvəskarları üçün Avropa çempionlarını doğma meydanda izləmək çox xoşdur. Əminliklə deyə bilərik ki, Ulu Öndərin xatirəsinə həsr olunan beynəlxalq turnir əsl futbol bayramına çevrilib.

*- Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş mötəbər turnir yüksək səviyyədə təşkil edilib. Bu təcrübədən bəhrələnərək Avropa və dünya çempionatlarının yarışlarını, Çempionlar Liqasının oyunlarını ölkəmizdə keçirmək olarmı?*

- Bəli, elə məqsədimiz də budur. Azərbaycan milli komandası Avropa çempionu olduqdan, federasiyamız dünya və Avropa Minifutbol Federasiyalarına üzv qəbul edildikdən sonra şəxsən özüm bir neçə dəfə danışıqlar aparmışam. Dünya Minifutbol Federasiyasının prezidenti hazırda Bakıdadır. Ulu Öndərin xatirəsinə həsr olunmuş turnirə qonaq kimi qatıldı və açılış mərasimində çıxış etdi. Bu günlər ərzində mənim də onunla bir neçə görüşüm baş tutdu və əsas mövzulardan biri dünya və Avropa çempionatlarını Bakıda keçirməklə bağlı oldu. Ən əsası bizim istəyimiz və kifayət qədər şəraitimiz var. Ölkəmiz beynəlxalq idman tədbirlərinə yüksək səviyyədə evsahibliyi edir. Dünya Minifutbol Federasiyasının prezidenti Filip Juda ötən həftə Bakıda təşkil olunan "Formula - 1" Azərbaycan Qran-prisini də izlədi. Bu, bizim üçün çox xoş idi və o, ölkəmizin yüksək təşkilatçılıq bacarığına şahid oldu. Danışıqlar gedir və hesab edirəm ki, biz bir-iki il ərzində irimiqyaslı turnirə evsahibliyi edəcəyik.

*- Azərbaycanın minifutbol tarixində qazandığı böyük zəfərdən bir ilə yaxın vaxt keçib. Ötən dövr ərzində hansı yeniliklər olub və əsas hədəflər nədən ibarətdir?*

- İdmançılar hər zaman deyirlər ki, çempion olmaq asandır, nəinki bu imici saxlamaq. Təbii ki, biz də belə düşünürük. Əlbəttə, məqsədlərimiz çoxdur. Əsas məqsədimiz statusumuzu saxlamaqdır. Bu il dünya çempionatı keçiriləcək və orda da kifayət qədər yüksək - Avropa çempionuna layiq səviyyədə çıxış etmək əzmindəyik. İkinci məqsədimiz federasiya olaraq minifutbolun infrastrukturunu yaxşılaşdırmaqdır. Hazırda bu istiqamətdə işlər gedir. Ən əsas isə minifutbol yığmasının bazasını yaratmaq istəyirik. Bunun üçün artıq yer də ayrılıb. Müəyyən hazırlıqlardan sonra tikintiyə başlanacaq.

Gənc futbolçuların yetişdirilməsi də əsas məsələlərdəndir. Bakıda keçirilən turnir bizə imkan verəcək ki, yeni futbolçuların oyunlarını izləyək. Digər əsas məsələ isə ölkə çempionatının təkmilləşdirilməsidir. Bu istiqamətdə artıq nəticələr var. Bildiyiniz kimi, əvvəllər minifutbol çempionatları həvəskarların yarışı olaraq keçirilirdi. Biz bunu daha peşəkar səviyyəyə çatdırdıq. AFFA ilə danışıqlar aparmışıq ki, böyük futboldakı klublarımız minifutbol komandaları yaratsınlar və onları ölkə çempionatına buraxsınlar. Artıq bir neçə komanda hazırda davam edən ölkə çempionatında iştirak edir. İnanıram ki, gələcəkdə bütün Premyer Liqa klublarının öz minifutbol komandaları olacaq. Hesab edirəm ki, bu da çox önəmlidir. Çünki kütləvilik əsasdır və bu, artıq var. Şəhərdə minifutbol meydançaları çoxdur. Yetərincə həvəskar futbolçular var ki, peşəkar olmaq istəyirlər. Təbii ki, elə əsas məqsəd də budur. Minifutbolun infrastrukturunun yaxşılaşdırılması milli komandaya və onun nəticələrinə kömək edəcək.

*- Bakıda keçirilən turnir çox məsul və mötəbər yarışdır. Milli komandamızın əsas hədəfi nə olacaq? Daha əvvəl qeyd etdiniz ki, həm uğur qazanmaq, həm də yeni futbolçuları sınamaq. Bunlardan ən önəmlisi hansıdır?*

- Nəzərə alaq ki, burada iki məsələ var. Biz doğma azarkeşlər önünə həm Avropa çempionu kimi çıxır, həm də Ümummilli Lider Heydər Əliyevin yubileyi ilə bağlı turnirində mübarizə aparırıq. Əlbəttə ki, biz çempion olmağı hədəfləmişdik. Təbii ki, medalçılar sırasına düşmək bizim üçün çox önəmlidir. Nəzərə alsaq ki, yarış yoldaşlıq turniridir, yeni futbolçuları sınaqdan keçirmək imkanımız var. Hesab edirəm ki, bunların hər ikisi önəmlidir.

Turnirə kifayət qədər güclü komandalar qatılıblar. Onlar həm dünya, həm də Avropa çempionatlarında mütəmadi olaraq iştirak edirlər. Turnirdə ilk rəqibimiz Çexiya komandası dəfələrlə çempion olub.

*- Azərbaycan Minifutbol Federasiyası olaraq aşağı yaş qrupları üzrə hər hansı strategiya hazırlanıbmı? Bu istiqamətdə hansı işlər görülür?*

- Minifutbol həmişə qeyri-peşəkar idman növü olub. İnsanlar asudə vaxtlarını səmərəli keçirmək üçün, peşəkar idmançılar karyeralarını başa vurduqdan sonra, yaxud adi idmanla məşğul olanlar məhz minifutbolu seçirlər. Dünya miqyasında da biz bunları müşahidə edirik. Artıq dünya federasiyası yarandıqdan sonra bu idman növünə başqa gözlə baxmağa başladılar. Bəzi ölkələr federasiya da yaratdılar. Eyni hal ölkəmizdə də yaşandı. Biz federasiya yaratmağa başlayanda təkcə Bakıda 30-dan çox minifutbol meydançası var idi və kifayət qədər insan idmanın bu növü ilə məşğul olurdu. Ona görə də biz federasiyanı yaradanda çətinlik çəkmədik. Çünki artıq infrastruktur var idi. Heyəti formalaşdıranda biz keçmiş peşəkar futbolçulara, futzalçılara, çimərlik futbolçularına müraciət etdik. Heyətə nəzər salsaq, bunu aydın görə bilərik. Biz düşünürük ki, peşəkar səviyyədə uşaq minifutbolunun olması da vacibdir. Qeyd etdiyim kimi, biz Premyer Liqa klubları ilə danışıqlar aparmışıq. Bəziləri komandalarını minifutbol çempionatına buraxıblar. Bu danışıqlarda əsas şərtlərdən biri də uşaq minifutbol komandasının yaradılmasıdır. Hesab edirəm ki, qısa bir zamanda böyük minifutbol klubları kimi, bir neçə uşaq komandası da olacaq.

*- Həm Azərbaycan Minifutbol Federasiyasına, həm də "Zirə" futbol klubuna rəhbərlik edirsiniz. Çox da uğurludur. Oxşar sahələr olsa da, fərqli idman növləridir. Bunlar sizə çətinlik gətirmir ki?*

- Bilirsiniz ki, mən həm Azərbaycan Minifutbol Federasiyasının fəxri prezidenti, həm də bu federasiyanı yaradan şəxslərdən biriyəm. "Zirə" futbol klubunun Müşahidə Şurasının sədriyəm. Mən gün ərzində bütünlüklə hər iki sahəyə vaxtımı həsr edə bilmirəm. Hər iki qurumun prezidentləri var. Onlar gün ərzində həmin işlərlə məşğul olurlar. Mənimlə zəruri hallarda vacib qərarlar, strateji gündəliklərlə bağlı məsləhətləşirlər. Mən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədriyəm. Mənim gündəlik işim odur və vaxtımın çox hissəsini də ona həsr edirəm. O ki qaldı müxtəlif idman növlərinə, biz qaydalara baxanda görürük ki, çox fərqlilik var. Amma futbola olan marağı nəzərə alaraq, hesab edirəm ki, hər iki iş mənim üçün maraqlıdır. Biz çalışırıq ki, böyük məqsədlər uğrunda həm futbolda, həm də minifutbolda mübarizə aparaq.

*- "Zirə" futbol klubunun baş məşqçisi Rəşad Sadıqovun müqaviləsinin vaxtı mövsümün sonunda başa çatır. Bu müqavilənin vaxtının uzadılması ilə bağlı danışıqlar gedirmi, yoxsa mövsümün nəticəsindən asılı olacaq?*

- Bəli, biz onunla danışıqlara başlamışıq. Siz yəqin ki, "Zirə" futbol klubunun fəaliyyətini izləyirsiniz və görürsünüz ki, biz həmişə məşqçi seçiminə təmkinlə yanaşırıq. Hər hansı seçim mövsümün sonunda və ya əvvəlində hansısa məqsədlər üçün qoyulur, sonra nəticəyə doğru irəliləyirik. Bir neçə mövsümdür ki, "Zirə" klubu olaraq əsas məqsədimiz avrokuboklara vəsiqə əldə etməkdir. Çünki təəssüflər olsun ki, hələlik böyük məqsədlər uğrunda mübarizə apara bilmirik. Azərbaycan Premyer Liqasında komandaların sayı az olsa da, onlar yaxşı nəticələr əldə edir, gərgin idman mübarizəsi gedir. Biz büdcəmizə də qənaətlə yanaşırıq. Daha yüksək yerlər uğrunda mübarizə aparmaq çətin olur. Ötən mövsümə nəzər yetirsək görərik ki, kifayət qədər yüksək nəticə əldə etdik. Ölkə çempionatında üçüncü olduq. Kubok yarışlarının finalında güclü rəqibə qarşı mübarizə apardıq və oyunu penaltilərə daşıya bildik. Ancaq matçı penaltilərdə uduzduq.

Baş məşqçi Rəşad Sadıqovun ötən mövsümdəki işini kifayət qədər yüksək qiymətləndirirəm. Bu mövsüm hələ yekunlaşmayıb. Biz avrokuboklara vəsiqə qazanmaq uğrunda mübarizə aparırıq. "Zirə" klubunun rəhbəri olaraq baş məşqçinin fəaliyyətindən razıyıq. İstərdik ki, o, təcrübəsi ilə komandamıza və ölkə futboluna hələ uzun illər xidmət etsin.

***Müsahibəni apardı:***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycanda Türkiyədə keçirilən seçkilərə səsvermə başladı








Qardaş Türkiyədə mayın 14-də keçiriləcək prezident və parlament seçkiləri ilə əlaqədar olaraq ölkənin Azərbaycandakı səfirliyində səsvermə başlayıb. Səfirlikdə yaradılmış səsvermə məntəqəsi mayın 5-dən etibarən fəaliyyət göstərir. Seçicilər Bakı vaxtı ilə səhər saat 9-dan axşam 9-a kimi səsvermədə iştirak edə bilərlər. Ötən gündən başlayaraq yüzlərlə türkiyəli öz namizədlərinə səs vermək üçün səfirlikdə növbə gözləyir.





## Siyasi aktivlik, şəffaf səsvermə, azad seçim

Dünən Türkiyə səfirliyində olaraq səsvermənin gedişi ilə maraqlandıq. Müşahidələrimiz göstərdi ki, yüzlərlə Türkiyə vətəndaşı öz seçimini etmək üçün səfirliyə gəlir. İlk səs verənlərdən biri də Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı idi. Səfir səsvermənin Türkiyə milləti və dövləti üçün xeyirli-uğurlu olmasını diləyib. "Bu gün qardaş Azərbaycanda yaşayan Türkiyə vətəndaşları öz namizədlərinə səs verirlər. İnsanlarımız öz seçimini edir", - deyə səfir bildirib.

Səs vermək üçün gələnlər arasında gənclər, ortayaşlılar, eləcə də ahıllar var. Seçicilər bir-bir qeydiyyatçılara yaxınlaşır, bir neçə dəqiqəyə mövcud prosedur qaydalarını yerinə yetirir və bülleteni qutuya atıb məntəqədən çıxırlar. Əsas ortaq özəllikləri isə kimi seçmələrindən asılı olmayaraq, onların daha güclü və xoşbəxt Türkiyə arzulamalarıdır.

Seçimini edib bülleten qutusundan uzaqlaşan 26 yaşlı seçici ilə həmsöhbət oluruq. "Açığını desəm, prezident seçkilərində ilk dəfədir ki, iştirak etdim. Müşahidə etdiyim qədərilə, burada prosedurlar şəffaf həyata keçirilir. Mən də azad iradəmlə seçkilərə qatılıb, prezidentliyə layiq bildiyim namizədə səs vermişəm. Qalibin kim olmasından asılı olmayaraq, bundan sonra da Türkiyənin Azərbaycana, Azərbaycanın da Türkiyəyə dəstək olmasını gözləyirəm. Biz doğrudan da əsl qardaş, sadiq dostlarıq", - deyə gənc seçici bildirir.









## Daha güclü Türkiyə naminə

Səsvermə üçün gələnlər sakitliyə riayət etmək şərtilə öz aralarında müzakirələr aparır, prezidentliyə layiq bildikləri namizdələrdən və parlament seçkilərində uyğun saydıqları siyasi partiyadan söz açır, proqnozlarını verirdilər. Seçicilərə yaxınlaşıb seçkilərdən sonra Türkiyəni necə təsəvvür etdiklərini soruşanda onlardan biri deyir: "Türkiyəni ən uca zirvələrdə, Azərbaycanı isə daim Türkiyənin yanında görmək istəyirik. Qoy qardaşlığımız əbədi olsun".

Digər seçici də Türkiyənin növbəti illərdə daha güclü iqtisadiyyata sahib olmasını arzulayır: "Ümidim çoxdur, əksəriyyət kimi seçərsə, deməli, ən yaxşı seçim də odur. Fikrimcə, ölkəmizdə iqtisadi vəziyyət düzələcəyi halda digər sosial problemlər də həllini tapacaq. Xalqımız da bu mənada dəstəyini əsirgəməməlidir".

Seçicilərdən biri isə fevral ayında Türkiyənin bir neçə vilayətində baş vermiş zəlzələrdə ziyan görmüş insanların taleyinə xüsusi diqqət çəkir. Bildirir ki, növbəti 5 il bütün xalqımız, xüsusilə də həmin vətəndaşlar üçün çox önəmlidir. Onun sözlərinə görə, zəlzələdən ziyan görmüş insanlarımıza qısa müddətdə yardım edilməli, onların bütün problemləri həllini tapmalıdır. "Hazırda bütün dünyada iqtisadi böhran yaşanır. Türkiyə də bu böhrandan yan keçməyib. On minlərlə insanın ölümünə və evsiz qalmasına səbəb olan zəlzələlər vəziyyəti bir qədər gərginləşdirdi. Ona görə də növbəti beş ilin Türkiyə üçün çətin keçəcəyi inkar edilə bilməz. Əsas odur ki, bütün illəri şərəflə yola salaq, inkişafa nail olaq", - deyə seçici əlavə edir.

Qeyd edək ki, hazırda Bakı ilə yanaşı, Gəncə və Naxçıvanda fəaliyyət göstərən diplomatik korpuslarda da səsvermə keçirilir. Ötən gün başlayan səsvermə mayın 6-7-də də davam etdiriləcək. Türkiyə vətəndaşlarının səs verə bilməsi üçün respublika üzrə 15 seçki məntəqəsi yaradılıb.

***Nəzrin QARDAŞXANOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Gəncə bölgəsində yaşayan türk vətəndaşları seçkilərdə fəal iştirak edirlər

Mayın 5-də qardaş Türkiyə Respublikasının Gəncədəki Baş konsulluğunun qarşısında böyük izdiham yaşanırdı. Gəncədə yaşayıb-işləyən Türkiyə vətəndaşları Türkiyənin növbəti prezident və parlament seçkilərində iştirak etmək üçün növbəyə dayanmışdılar.





Ölkə üçün taleyüklü məsələ olan bu seçkilərdə daha layiqli namizədə səs vermək üçün onlar növbə ilə seçki məntəqəsinin üzvlərinə yaxınlaşır, şəxsiyyət vəsiqələrini təqdim edərək səsvermə bülleteni alır, istədikləri namizədə öz münasibələrini bildirirdilər.

Seçki məntəqəsinin sədri Kadır Gündoğdu ilə söhbət zamanı məlum oldu ki, konsulluqda yaradılan seçki məntəqəsi 28 bölgəni əhatə edir. Bu ərazilərdə yaşayan türk vətəndaşları təmsil etdikləri ölkədə keçirilən prezident və parlament seçkilərinə böyük maraq göstərirlər. Seçki məntəqəsində onların sərbəst şəkildə istədikləri namizədə səs vermələri üçün hər cür şərait yaradılmışdır. Uzaqda yaşayan, hətta Qarabağ ərazisində işləyən türk vətəndaşlarının məntəqəyə gətirilib-aparılması üçün avtobus da ayrılmışdır.

Məntəqəyə səs verməyə gələn Hulusi Aşiq deyir ki, mən xeyli vaxtdır Gəncədə inşa edilən idman sarayında elektrik havalandırmasının qurulması işində çalışıram. Türkiyənin tale yüklü bu seçkisində iştirak etməyi özümün vətəndaşlıq borcu hesab edirəm. Heç bir təzyiq olmadan istədiyim namizədə səs verdim.

Məntəqədə siyasi partiyaların müşahidəçilərinə də lazımi şərait yaradılıb. Milliyyətçi Hərəkat Partiyasının nümayəndəsi Orxan Ersenlə söhbət zamanı dedi ki, məntəqədə heç bir qanun pozuntusu müşahidə etmirəm. Hər bir türk vətəndaşına istədiyi namizədə səs verməsinə lazımi şərait yaradılıb.

Türkiyənin Gəncədəki Baş konsulluğunda fəaliyyət göstərən seçki məntəqəsində seçki prosesi 3 gün davam edəcəkdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir



Azərbaycan dövləti işğaldan azad etdiyi ərazilərdə dünyada misli rastlanmayan vüsətlə tikinti-quruculuq işləri aparır, 30 il müddətində barbar düşmənin talayaraq daşı daş üstündə qoymadığı yurdlarımızı abadlıq məkanına çevirir.

Prezident İlham Əliyevin şəxsi nəzarəti altında Qarabağ və Şərqi Zəngəzurda abad şəhərlər, kəndlər salınır, "ağıllı" idarəetmə prinsipləri əsasında infrastruktur yaradılır, bir sözlə, Böyük qayıdışa hərtərəfli və sürətli hazırlıq görülür.

Artıq Zəngilanın Ağalı kəndi və Tərtərin Talış kəndinin sakinlərinin timsalında Böyük qayıdışın uğurlu başlanğıcı da qoyulub və bir qərinəlik ayrılıqdan sonra onlar yurdlarında xoşbəxt həyat sürməyə başlayıblar.

Dövlət başçısı İlham Əliyevin vurğuladığı kimi, Ağalı və Talışda görülən işlərin özü belə artıq bütün Azərbaycan əhalisinə və dünyaya göstərir ki, gələcək Qarabağın və Şərqi Zəngəzurun siması necə olacaq.

## Böyük qayıdışa kompleks və sürətli hazırlıq görülür

Qarabağa və Şərqi Zəngəzura qayıdışı Prezident İlham Əliyev ölkəmizin milli çağırışı kimi xarakterizə edib və dövlətimiz bu istiqamətdə kompleks tədbirlər həyata keçirir.

Xatırladaq ki, ötən iki il ərzində işğaldan azad edilən ərazilərimizdə aparılan quruculuq, bərpa işləri ilə əlaqədar dövlət büdcəsindən 5 milyard manata yaxın vəsait ayrılıb. 2023-cü ildə isə işğaldan azad edilmiş ərazilərin bərpası üçün 3 milyard manat vəsait ayrılıb. Eyni zamanda büdcəyə ediləcək əlavələrin, bu rəqəmin ən azı 3 milyard manat olacağı proqnozlaşdırılır, onun əsas hissəsinin Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında istifadə edilməsi planlaşdırılıb.

Qarabağda və Şərqi Zəngəzurda böyük infrastruktur layihələri həyata keçirilir, dəmir yolları, avtomobil yolları, tunellər çəkilir, beynəlxalq hava limanları tikilib istifadəyə verilir, elektrik enerjisi, su təchizatı və digər mühüm işlər görülür.

Həmçinin yeni şəhərlərin, kəndlərin, inzibati və yaşayış binalarının təməlləri atılır, açılışları həyata keçirilir.

İşğaldan azad edilən ərazilərdə Azərbaycan dövlətinin həyata keçirdiyi bütün bu mühüm işlərlə dövlət başçısı İlham Əliyevin həmin ərazilərə mütəmadi səfərləri zamanı daha yaxından tanış olur, tarixi yurdlarımızın müharibənin üzərindən ötən qısa zamanda necə abadlaşdırıldığının, ən ümdəsi hər bir bölgəmizin özünəməxsus təbii görkəminin, ruhunun saxlanılması ilə yenidən çağdaş formada dirçəldildiyinin şahidi oluruq.

Elə bu həftə ərzində Qarabağ və Şərqi Zəngəzura səfər edən ölkə rəhbəri İlham Əliyev əzəli yurdlarımızda xeyli obyektlərin açılışlarını etdi, yenilərinin bünövrələrini qoydu.

## Uğurlu açılışlar, əbədi bünövrələr

Mayın 2-də birinci xanım Mehriban Əliyeva ilə birgə Ağdam rayonuna səfərə yollanan Prezident İlham Əliyev Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış oldu, "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoydu. Sözügedən tarixdə dövlət başçısı və birinci xanım Ağdam şəhərində tikiləcək inzibati binanın, eləcə də şəhərdə salınacaq 2-ci və 3-cü yaşayış məhəlləsinin, Ağdam Muğam Mərkəzinin bünövrəsini qoydular.

Qarabağdan sonra mayın 4-də yolunu Şərqi Zəngəzurdan salan İlham Əliyev Laçın rayonunun Güləbird kəndinin təməlini qoydu.

Həmin tarixdə Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak edən dövlət başçısı şəhərdə 600 şagirdlik tam orta məktəb binasının, 91 çarpayılıq mərkəzi xəstəxana binasının da bünövrəsini qoydu. Həmçinin bu tarixdə Prezident İlham Əliyev Qubadlının Xanlıq, Mahruzlu, Zilanlı kəndlərinin də təməlini qoydu.

Mayın 4-də Zəngilan rayonunda Zəngilan Konqres Mərkəzinin, "Azərenerji" ASC-nin Zəngilan rayonunda "Sarıqışlaq" Su-Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olan Prezident İlham Əliyev Zəngilan şəhərində inzibati binanın, hotel kompleksinin, Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimində iştirak etdi. Dövlət başçısı bu tarixdə həmçinin Zəngilan rayonunun Cahangirbəyli kəndinin, Xudafərin qəsəbəsinin təməlini qoydu.

Əlamətdar hadisələrlə yadda qalacaq bu tarixdə - mayın 4-də ölkə rəhbəri İlham Əliyev Cəbrayıl rayonunda da mühüm bünövrələr qoydu, açılış etdi. Rayonda 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyasını işə salan Prezident "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış oldu, "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin müəssisələrinin təməllərini qoydu, Cəbrayıl şəhərində inşa edilən akademik Mehdi Mehdizadə adına tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə tanış oldu.

Cəbrayıl rayonunun Şükürbəyli və Horovlu kəndlərinin təməlini qoydu.

## Qarabağın turizm üçün cənnət məkanı

Mayın 5-də də Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birgə işğaldan azad edilən digər yurdlarımızda, Xocavənddə və Füzulidə səfərdə idi. Həmin gün dövlət başçısına və birinci xanıma Tuğ kəndində həyata keçiriləcək turizm layihələri barədə məlumat verildi. İlham Əliyev burada İnzibati Mərkəzin və ilk yaşayış məhəlləsinin təməlini qoydu.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hadrut qəsəbəsində tam orta məktəbin bərpası layihəsi ilə tanış oldular, ilk yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak etdilər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva inzibati mərkəzin də təməl daşını atdılar.

Ötən gün dövlət başçısı Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin, Hadrut "Qovşaq" yarımstansiyasının və Rəqəmsal İdarəetmə mərkəzinin açılışlarını etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunun Pirəhmədli kəndinin təməlqoyma mərasimində iştirak etdilər.

Dövlət başçısı Füzuli-Hadrut avtomobil yolunun 12,3 kilometrlik hissəsinin açılışını etdi, Dədəli kəndinin təməlini qoydu.

## Bütün planlar sürətlə reallaşdırılır

Dövlət bu ilin yay aylarında 700-dən çox ailəni Laçın şəhərində yerləşdirməyi planlaşdırır. Eyni zamanda qanunsuz olaraq məskunlaşma siyasəti aparılan Zabux və Sus kəndlərində bu istiqamətdə işlər gedir. Həmin kəndlərə də ilin sonuna qədər keçmiş köçkünlər qaytarılacaq.

Göründüyü kimi, birbaşa dövlət başçısı İlham Əliyevin şəxsi nəzarəti altında Qarabağ və Şərqi Zəngəzurda sürətli və kompleks quruculuq işləri həyata keçirilir, Böyük qayıdışa hazırlıq görülür.

Hələ qarşıda bizi bu ərazilərdə gerçəkləşdiriləcək neçə-neçə yeni uğurlu layihələr, işlər gözləyir. Necə ki bu barədə qurucu lider İlham Əliyev özü söyləyib: "Bax quruculuq işlərimiz bu istiqamətdə aparılır və bir daha onu göstərir ki, bizim bütün planlarımız, bəyan etdiyimiz bütün məqsədlər həyatda öz əksini tapır və tapacaq".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# REGİONLAR

## Bərdədə Heydər Əliyevin pambığı "ağ qızıl" etməsindən danışılmışdır

**Bərdədə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Heydər Əliyev və Azərbaycanda pambıqçılığın inkişafı" mövzusunda konfrans keçirilmişdir.**

"Azərbaycan Sənaye Korporasiyası" ASC, Bərdə Rayon İcra Hakimiyyəti və "Azərpambıq ASK" MMC-nin birgə təşkilatçılığı ilə keçirilən konfransda dövlət və hökumət rəsmiləri, yerli icra hakimiyyəti və ictimaiyyət nümayəndələri, fermerlər iştirak etmişlər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Bərdə şəhərinin mərkəzində yerləşən abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Konfransın davamı olaraq iştirakçılar Mədəniyyət Mərkəzinin foyesində görkəmli şəxsiyyət Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycanda pambıqçılığın inkişafındakı müstəsna xidmətlərinə həsr edilmiş fotostendlə tanış olublar.

Tədbir Dövlət himninin səsləndirilməsindən sonra Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Konfrans "Heydər Əliyev və Azərbaycanda pambıqçılığın tarixi" adlı sənədli filmin nümayişi ilə davam edib.



Tədbiri açan Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə, onun yürütdüyü siyasi kursdan danışıb, ölkəmizin sürətli və uzunmüddətli inkişafının, son onilliklər ərzində qazandığı uğurların Ümummilli Liderin adı ilə bağlı olduğunu vurğulayıb.

"Azərbaycan Sənaye Korporasiyası" ASC-nin baş direktoru Kamran Nəbizadə Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolundan və misilsiz xidmətlərindən söz açıb. Baş direktor bildirib ki, Heydər Əliyevin 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra kənd təsərrüfatını ölkənin inkişafında prioritet sahələrdən biri elan etməsi və aqrar sahədə, o cümlədən pambıqçılıqda həyata keçirdiyi islahatlar, verdiyi vacib qərarlar nəticəsində respublikamızda pambıqçılıq sürətlə inkişaf edib. Qeyd olunub ki, Ümummilli Liderin mütəmadi olaraq rayonlara etdiyi səfərlər zamanı təsərrüfatla birbaşa yerindəcə tanış olması, zəhmətkeşlərlə keçirdiyi çoxsaylı görüşlər, bölgələrdə pambıqçılıq üzrə keçirilən ənənəvi zona müşavirələri kənd təsərrüfatının bu strateji sahəsində yeni inkişaf dövrünün başlanğıcı olub.

Heydər Əliyev məktəbinin layiqli davamçısı, bütün sahələrdə uğurlara imza atan islahatçı lider Prezident İlham Əliyevin pambıqçılığın inkişafı ilə bağlı apardığı məqsədyönlü siyasətdən danışan "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin baş direktoru ölkə rəhbərinin birbaşa tapşırıq və göstərişlərinə əsasən, aqrar sektorun bu sahəsinin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıb.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Ziyad Səmədzadə bildirib ki, müasir dövlətimizin qurucusu Heydər Əliyevin sayəsində Azərbaycan dünyada tanınan, inkişaf edən, çiçəklənən bir ölkəyə çevrilib. Ziyad Səmədzadə qeyd edib ki, bu gün Azərbaycan Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının uğurlu icrası nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyub. Buna görə də Heydər Əliyev əbədiyaşar liderdir.

Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsü Tərlan Musayeva Ulu Öndər Heydər Əliyev ilə bağlı xatirələrini konfrans iştirakçıları ilə bölüşərək, görkəmli şəxsiyyətin hər zaman pambıqçılara olan diqqət və qayğısından danışıb.

Konfransın sonunda 2022-ci ildə istehsalatda fərqlənmiş pambıqçı fermerlərə "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin baş direktoru Kamran Nəbizadə, Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ziyad Səmədzadə və Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri Rafail Quliyev tərəfindən fəxri fərmanlar təqdim olunub.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## "eLVe" xorunun solistləri Şirvanda konsert proqramı ilə çıxış ediblər

**Latviya səfirliyinin təşkilatçılığı ilə İrlandiyadakı Latviya Cəmiyyətinin qarışıq səsli "eLVe" xorunun solistləri Azərbaycana səfərləri çərçivəsində Şirvan şəhərində konsert proqramı ilə çıxış ediblər.**

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçirilən konsert proqramı Mədəniyyət Mərkəzində gerçəkləşib. AZƏRTAC xəbər verir ki, şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov tədbir iştirakçılarını və qonaqları salamlayaraq, dövlət müstəqilliyimizin möhkəmlənməsində və inkişafında misilsiz xidmətləri olan Ümummilli Liderin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsinin əhəmiyyətindən, bu istiqamətdə keçirilən tədbirlərdən danışıb. O, Ulu Öndərin işıqlı ideyalarının gerçəkləşdiyini, inkişafın bütün sahələrində onun imzasının əks olunduğunu qeyd edib.

Latviyanın səfir əvəzi Viya Buşe və səfirin müşaviri Elmira Mirzəyeva çıxış edərək Şirvan şəhərində olmaqdan məmnunluq duyduqlarını, təşkilatçılığa və qonaqpərvərliyə görə minnətdarlıqlarını bildiriblər.

Sonda İrlandiyadakı Latviya Cəmiyyətinin qarışıq səsli "eLVe" xoru çıxış edib.

## Bərdə-Ağdam dəmir yolu xəttinin inşası bu il başa çatacaq

**Bərdə-Ağdam dəmir yolunun ümumi ox üzrə uzunluğu 47,1 kilometrdir. Yan yolları ilə birlikdə isə 57,8 kilometr dəmir yolunun tikintisi nəzərdə tutulur.**



Artıq yolun 56,9 kilometri hazırdır. Yalnız Ağdam dəmir yolu stansiyasına gedəcək 1 kilometrlik hissənin inşası qalıb. Ağdam stansiyasında həmçinin 5 yan yol salınır. Layihələndirmə işlərinin 90 faizi yerinə yetirilib. Tikinti üzrə isə 68 faiz icra edilib. Bu barədə AZƏRTAC-a "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) tikintiyə nəzarət idarəsinin rəhbəri Tural Abbaslı bildirib.

Tural Abbaslı dəmir yolu stansiyalarının tikintisi barədə də məlumat verib: "Bərdə stansiyasının köhnə binasında artıq söküntü işləri başlayıb, yerində yenisi inşa olunacaq. Köçərli və Təzəkənd stansiyalarının bünövrələri inşa olunub. Ağdam stansiyasının layihələndirmə işləri sürətlə davam edir. İyulun əvvəlində layihələndirmə işlərini bitirib, iyul-avqust aylarında tikintiyə başlanılması planlaşdırılır. Elektrik yan xətt şəbəkəsinin tikintisinə və rabitə siqnal işlərinə ilin sonunda başlanması planlaşdırılır. Bu ilin sonunadək Ağdam stansiyası üzrə əlavə işlərin başa çatdırılması nəzərdə tutulub".

"Yevlaxdan Bərdəyə qədər olan 38 kilometr köhnə yolun da yenidən qurulması üzrə işlərə başlanılıb. İlkin olaraq texniki iqtisadi əsaslandırma prosesi gedir", - deyə o bildirib.

## Bu günədək şimal-qərb rayonlarında 378,6 hektar sahədə tütün əkilib

**"Azərtütün" Açıq Səhmdar Cəmiyyəti (ASC) tərəfindən Zaqatala, Balakən, Qax, Şəki və Oğuz rayonlarında bu günədək 378,6 hektar sahədə "Virciniya botaniki" növlü tütün əkilib.**

Bu barədə AZƏRTAC-a ASC-dən məlumat verilib. Qurumdan bildirilib ki, bu il ASC tərəfindən həmin rayonlarda 667,1 hektar sahədə tütün əkilməsi nəzərdə tutulur. Tütün istehsalı ilə əlaqədar 76 fermerlə müqavilə bağlanılıb. Bağlanılan müqavilələr üzrə tütün əkiləcək sahələr 603,1 hektar təşkil edir. Eyni zamanda cari mövsümdə şirkətin özünə məxsus 64 hektar sahəsində də tütün əkiləcək.

Bu günədək şirkət tərəfindən Zaqatala rayonunda 71 hektar, Balakəndə 67,6 hektar, Qaxda 87,1 hektar, Şəkidə 148,9 hektar, Oğuz rayonunda isə 4 hektar sahəyə tütün şitilləri köçürülüb və hazırda işlər davam etdirilir.

## Tərtər rayonunda 15 ton barama istehsalı gözlənilir

**Son illər ölkəmizdə kənd təsərrüfatının ənənəvi və ixracyönümlü sahələrindən olan baramaçılığın inkişafı istiqamətində mühüm işlər görülür.**



Respublikamızın digər bölgələrində olduğu kimi, Tərtər rayonunda da baramaçılığın keçmiş şöhrətinin qaytarılması istiqamətində mühüm addımlar atılır. AZƏRTAC xəbər verir ki, ötən il Tərtər rayonunda 10,2 ton barama istehsal edilib. Bu il isə 15 ton barama istehsalı nəzərdə tutulub. Bu məqsədlə 375 qutu baramaqurdu gətirilərək kümçülərə təhvil verilib.

Qeyd edək ki, ipəkqurdunun yem bazasının yaradılması üçün rayon ərazisində 2016-2023-cü illər ərzində 374 mindən artıq tut tingi əkilib. Mövcud və yeni əkilən tut ağacları, əhalinin baramaçılıq sahəsindəki təcrübəsi, həmçinin bu sahənin gəlirli olması barama istehsalını dəfələrlə artırmağa imkan verir.

# Kəndlinin çətiri

## Dövlət kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli aqrar sığorta təklif edir

**Ölkəmizdə aqrar sektorun inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün kəndliyə hər cür dəstək verilir. Bunlardan biri də güzəştli aqrar sığortanın tətbiqidir. Bu o deməkdir ki, fermerlər öz təsərrüfat sahələrini sığortalayarkən ödənilməli olan vəsaitin 50 faizi dövlət büdcəsindən qarşılanır. Məqsəd indiki halda fermerlərin maddi imkanlarını nəzərə alaraq onlara bu işdə dəstək olmaqdır.**

Aqrar sığortanın tətbiqinə başlanıldıqdan bəri bu sahəyə maraq ildən-ilə artmaqdadır. Azərbaycanda dövlət dəstəyi ilə güzəştli aqrar sığorta mexanizminin tətbiqini həyata keçirən Aqrar Sığorta Fondu (ASF) 2022-ci ilin nəticələrini açıqlayıb. Fondun verdiyi məlumata görə, 2022-ci ildə bitkiçilik üzrə zərər ödənişləri 2021-ci illə müqayisədə 58 dəfədən çox artıb.

Məlumatda o da bildirilir ki, fond "Güclü kənd təsərrüfatı, güclü Azərbaycan" prinsipi ilə kənd təsərrüfatı sektorunu daha da irəliyə aparan, fermerlərin əməyini və gəlirlərini qoruyan strateji hədəflər istiqamətində işlərini davam etdirir. 2019-cu ildə qəbul olunan "Aqrar sığorta haqqında" qanunla tənzimlənən aqrar sığorta mexanizmi ölkədə kənd təsərrüfatı istehsalında davamlılığı, istehsalçının gəlirlərində sabitliyi təmin etmək məqsədilə təbii fəlakətlərə və müxtəlif risklərə qarşı fermer təsərrüfatlarını təminat altına alır.

Artıq fermerlər də bilirlər ki, iqlim dəyişiklikləri və bir çox qlobal problemlərin qaçılmaz olduğu indiki dövrdə təsərrüfatı sığortasız təsəvvür etmək mümkün deyil. Elə bunun nəticəsidir ki, ASF-nin fəaliyyət göstərdiyi qısa müddət ərzində aqrar sığorta ölkənin bütün bölgələrində geniş yayılaraq istehsal həcminin təxminən 95 faizini əhatə edir və kənd təsərrüfatı sahəsində çalışan bütün fermerlər bu sistemin xidmətlərindən yararlana bilirlər.

Aqrar Sığorta Fondu ötən il ölkə üzrə fermerlərə 2,4 milyon manat zərər ödənişləri edib. Xatırladaq ki, 2021-ci ildə bu rəqəm 151 min manat olmuşdu. Bu o deməkdir ki, 2022-ci ildə ödəniş 15 dəfədən çox artıb. Təkcə bitkiçilik üzrə zərər ödənişləri 2021-ci illə müqayisədə qeyd etdiyimiz kimi, 58 dəfədən çox artaraq 28,7 min manatdan 1,6 milyard manata yüksəlib. Heyvandarlıq üzrə də oxşar vəziyyətdir. Belə ki, 2021-ci ildə heyvandarlıq üzrə zərər ödənişləri 123 min manat təşkil etmişsə, ötən il fermerlərə tələf olan heyvanlara görə 710 min manat sığorta pulu ödənilib.

Beləliklə, ölkə üzrə toplam sığorta öhdəliyi 45 faiz artıb, 502 milyon 808 min manat dəyərində təsərrüfat təminat altına alınıb, qarşılığında 13,7 milyon manat sığorta haqqı toplanıb. 2021-ci illə müqayisədə ötən il yığılan sığorta haqlarının həcmi 21 faiz artıb. 2021-ci ildə 27 min müqavilə bağlandığı halda, keçən il bu rəqəm 46 minə yüksəlib. Ölkə üzrə 2 milyon hektara yaxın əkinə yararlı torpaq sahəsinin 10 faizdən çoxu - 261 223 hektarı, eləcə də 13102 baş iri və xırdabuynuzlu heyvan sığortalanıb. Əlavə olaraq keçən il bağlanan müqavilələr üçün 1 milyon manat ehtiyat yaradılıb.



Keçən il əkin sahələrində sığortalı fermerlərin ən çox qarşılaşdığı zərər hadisələri dolu, sel-su basma, fırtına və 3-cü şəxsin hərəkətləri, heyvandarlıq üzrə isə yoluxucu xəstəliklər olub. Ən böyük zərər ödənişləri Şəki, Hacıqabul, Qobustan rayonlarının payına düşüb.

Məlum olduğu kimi, bir neçə gün əvvəl ölkə ərazisində hava şəraiti kəskin dəyişmişdi. Bir çox rayonlarda güclü yağışlar, sel, külək, qasırğa, fırtına olmuş, temperatur kəskin aşağı düşmüş, dolu yağmışdır. Bu hadisələr nəticəsində bəzi rayonlarda meyvə bağlarına, əkin sahələrinə ciddi zərər dəydi. 30-a yaxın rayonun təsərrüfatında zərərçəkmiş fermerlərə dəymiş zərərin hesablanması və ödənilməsi üçün ASF-yə 200-dən artıq müraciət daxil oldu. Gecikdirilmədən baş verən sığorta hadisələri ilə bağlı əkin sahələrini və təsərrüfatlarını sığorta etmiş fermer və sahibkarların müraciətləri qeydə alınaraq müstəqil aqrar sığorta ekspertlərinin iştirakı ilə araşdırılmağa başlandı. Araşdırmalar başa çatdıqdan sonra qanunveriliyə uyğun olaraq sığorta hadisələri üzrə ödənişlər həyata keçiriləcək.

Bu yerdə təbii sual ortaya çıxır: havaların qeyri-sabit keçməsi üzündən sığortalı olmayan əkin sahələrinə, meyvə bağlarına dəyən zərər necə olacaq? Cavab təsəlliverici olmasa da, sadədir: bu cür sahələrin və bağların sahibləri aqrar sığorta xidmətindən istifadə etmədiklərinə görə kompensasiya ala bilməyəcəklər. Bu səbəbdən onlara gələcəkdə belə halların baş verməməsi, yəni çəkdikləri əziyyətin və xərclərinin batmaması üçün əkin sahələrini, eləcə də mal-qaralarını vaxtında dövlət dəstəyi hesabına sərfəli şərtlərlə sığortalamaq tövsiyə olunur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## İmişlinin daha 5 kəndi yol sarıdan rahatlığa çıxır



**İmişli rayonunda Ağsu-Kürdəmir-Bəhrəmtəpə avtomobil yolunun 71-ci km-dən ayrılan Məmmədli-Ağamalılar-Əlyetməzli-Allahmədətli-Telişli marşrutu üzrə avtomobil yollarının yenidən qurulması davam edir.**

Ümumilikdə 5 yaşayış məntəqəsinin 8 mindən çox əhalisinin istifadə etdiyi sözügedən yolların ümumi uzunluğu 43,5 km-dir. IV texniki dərəcəyə uyğun yenidən qurulan yolların hərəkət hissəsinin eni müvafiq olaraq 6, ümumi eni ortalama 10 metr təşkil edəcək.

Artıq sözügedən yolun 10 km-lik hissəsində işlər və asfalt örtüyünün alt layının döşənməsi işləri yekunlaşıb.

Yenidənqurma işləri layihənin 5 km-lik Məmmədli hissəsində də davam edir. Bu hissə üzrə də artıq asfaltlanma işlərinə start verilib. Layihənin Əlyetməzli hissəsində isə hazırda torpaq işləri icra olunur.

Yenidənqurma işləri çərçivəsində yolun Ağamalılar və Məmmədli hissəsində suların ötürülməsi üçün mövcud suötürücü boruların təmiri, yeni boruların quraşdırılması yekunlaşıb, yolun Ağamalı və Əlyetməzli kəndləri ərazisində isə mövcud avtomobil körpülərinin təmiri davam edir.

Tikinti layihəsinin sonuncu mərhələsində avtobus dayanacaqlarının, yol nişanlarının quraşdırılması və yolun üfüqi nişanlanma xətlərinin çəkilişi işləri aparılacaq.

Bütün işlər "İnşaat Norma və Qaydaları"na uyğun olaraq aparılır. İşlərin vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib.

Avtomobil yollarının yenidən qurulması adları çəkilən yaşayış məntəqələrinə rahat gediş-gəlişi təmin edəcək, kənd təsərrüfatının inkişafına şərait yaradacaq.

***L.QULİYEV,***
***"Azərbaycan"***

# Ulu Öndərin 100 illik yubileyinə həsr edilmiş "Baku Open-2023" festivalının açılış mərasimi olub






Bakıda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Baku Open-2023" Beynəlxalq Şahmat Festivalının açılış mərasimi olub.



AZƏRTAC xəbər verir ki, Gənclər və İdman Nazirliyi və Azərbaycan Şahmat Federasiyasının təşkilatçılığı ilə keçirilən yarışın açılış mərasimində "Heydər Əliyev və Azərbaycan şahmatı" adlı videoçarx nümayiş etdirilib.

Sonra Azərbaycan Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov çıxış edərək ölkə şahmatının inkişafının əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib. M.Məmmədov şahmata olan diqqət və qayğının bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyib.

Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviç şahmat yarışlarının yüksək səviyyədə təşkilatçılığı, eləcə də bu idman növünün inkişafı naminə görülən işlərə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq edib.

Gənclər və idman naziri Fərid Qayıbov may ayında Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunan bir sıra idman tədbirlərinin keçiriləcəyini vurğulayıb. Sonda nazir yarış iştirakçılarına uğurlar arzulayıb. Dövlət himni səsləndirildikdən sonra rəsmi hissə başa çatıb. Açılış şahmata həsr olunan rəqs kompozisiyası ilə yekunlaşıb. Qeyd edək ki, ikinci turda FIDE prezidenti Arkadi Dvorkoviç, gənclər və idman naziri Fərid Qayıbov müxtəlif lövhələrdə rəmzi ilk gedişi ediblər.

# *Arkadi DVORKOVİÇ:* "Bakı yenidən dünyanın şahmat paytaxtına çevriləcək"

Səkkiz ildən sonra, 29 iyul - 25 avqust tarixlərdə Bakı yenidən dünyanın şahmat paytaxtına çevriləcək.

AZƏRTAC xəbər verir ki, bunu FIDE-nin prezidenti Arkadi Dvorkoviç "Baku Open-2023" Beynəlxalq Şahmat Festivalının açılış mərasimi zamanı jurnalistlərə açıqlamasında bildirib.

O, Azərbaycanda təşkil ediləcək şahmat üzrə dünya kubokunun əhəmiyyətindən bəhs edərək deyib: "Bizim ikiillik təqvimimizdə dünya çempionluğu uğrunda matçdan sonra dünya kuboku ən önəmli turnirdir. Bu yarış əhəmiyyətinə görə digərlərindən üstündür. Çox sayda festival şəklində turnirlər və kütləvi tədbirlər keçiririk. Ancaq dünya kuboku çox ciddi yarışdır. Burada ilk 3 yeri tutan şahmatçılar iddiaçılar turnirində iştirak etmək şansı qazanırlar".

Arkadi Dvorkoviç 2015-ci ildən sonra dünya kubokunun ikinci dəfə Azərbaycanda keçirilməsi üçün verdiyi dəstəyə görə Azərbaycan Prezidentinə və yerli şahmat federasiyasına təşəkkür edib. O, iyul-avqust aylarında bütün şahmatsevərlərin diqqətinin Bakıya yönələcəyini vurğulayıb.

"Şahmatçıların çoxu dünya kubokuna qatılmağı hədəfləyir. Onlar bura düşmək üçün həm daxili, həm də beynəlxalq yarışlarda tam gücləri ilə mübarizə aparırlar. 300-dən çox şahmatçı turnirə qatılır ki, onların 100-ü qadınlardır. Əminəm ki, burada baş verənləri bütün dünyada milyonlarla insan izləyəcək. Ölkəyə çoxlu sayda qonaqlar gələcək və bu, əsl bayram olacaq", - deyə FIDE rəhbəri söyləyib.

O, dünya kubokunun keçiriləcəyi tarixdə bir sıra uşaq yarışlarının təşkilinin də nəzərdə tutulduğunu əlavə edib, bütün bunlar insanların Bakıdakı mötəbər yarışdan həzz almaları üçün böyük imkan yaradacağını deyib.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Ermənistan silahlı qüvvələri Laçında mühəndis işləri görən traktoru atəşə tutublar

Mayın 5-i saat 12:00 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Laçın rayonu ərazisində, şərti sərhəddə yerləşən üzbəüz mövqelərimizdə mühəndis işləri görən traktoru atəşə tutublar. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun qeyd olunan istiqamətdə yerləşən bölmələri tərəfindən cavab tədbirləri görülüb.

# Qonşuluğa yaraşmayan siyasət

## İran Azərbaycanın legitim və əsaslı tələblərini yerinə yetirməlidir

"Biz hər zaman bu əlaqələri inkişaf etdirməyə çalışmışıq və demək olar ki, 20 il ərzində Prezident olaraq mən dəfələrlə İranda rəsmi səfərdə olmuşam. İranın əvvəlki prezidentləri dəfələrlə Azərbaycana səfər edib. Bizim çox fəal ticarət əlaqələrimiz olub. Biz nəqliyyatla bağlı məsələlərdə, xüsusilə "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə bağlı fəal işləmişik və düşünürdük ki, bu əlaqələrin böyük potensialı var. Çünki qonşularla yaxşı əlaqələrin olması hər zaman yaxşıdır, xüsusilə tarixdə xatırlanası çox məqam olanda".






Bu sözləri Prezident İlham Əliyev Şuşada Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransdakı çıxışında bildirib.

İranla tarixi köklərə əsaslanan qonşuluq münasibətlərimiz iki ölkə arasında xüsusən ticarət əlaqələrində özünü daha aydın göstərib. Bununla belə, İran 30 il ərzində işğalçı dövləti dəstəkləyib, din bir qonşusunun beynəlxalq hüquq çərçivəsində tanınan əraziləri daxilində ermənilərin törətdiyi qanunsuzluqlara, vəhşiliklərə, hər şeydən öncə isə dinimizə, dini abidələrimizə qarşı təhqirlərə göz yumub. Elə 44 günlük Vətən müharibəsi dövründə də İranın ermənipərəst mövqeyini açıq-aşkar müşahidə etdik. Hətta rəsmi səviyyədə Ermənistana dəstək ifadə edən çıxışların sərgilənməsinin və bu ölkənin birtərəfli mövqe tutduğunun şahidi olduq.

İkinci Qarabağ müharibəsində qazandığımız şanlı qələbə, tarixi sərhədlərimizi bərpa etməyimiz isə sanki İranı narahat etməyə başladı. Azərbaycan tərəfindən qonşuluq münasibətlərinin qorunub saxlanılması, inkişafı istiqamətində səylər davam etdirilsə də, addımlar atılsa da, İran buna qarşılıq vermədi, sanki bizim zəfərimizi özünə təhdid kimi gördü. Beləliklə, müharibədən dərhal sonra İran Azərbaycanla sərhəddə hərbi təlimlər keçirməyə başladı, həmçinin bunu dəfələrlə təkrarladı.

Eyni zamanda müharibə dövründə İran ərazisindən Ermənistana silah-sursat daşınması ilə bağlı faktlar da Azərbaycana məlumdur. Laçın ilə Xankəndi arasında kameralar quraşdırıldıqdan sonra İranın yük maşınlarının dövri olaraq Qarabağa hərəkət etməsi müşahidə olundu. Aparılan monitorinqlər nəticəsində məlum oldu ki, bu, artıq tendensiya halını alır və İran qanunsuz olaraq yük daşıyır. Bunun dayandırılması İran səfirinə bildirilsə də, qeyri-qanuni hərəkətlər davam etdirildi. Azərbaycan İrana nota verdi. Bundan sonra İran qanunsuz əməllərini daha da intensivləşdirdi.

İrandan Ermənistanla dostluq münasibətlərini inkişaf etdirmək üçün rəsmi səfərlər geniş xarakter aldı. Ötən ilin payızında isə Qafan şəhərində İranın baş konsulluğu açıldı.

Qəribədir ki, işğalçı, terrorist, Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanda konsulluq açan rəsmi Tehran Azərbaycanın İsraildə səfirlik açmasına qarşı çıxaraq bununla bağlı bəyanat yaydı.

### İran terror aktını şəffaf araşdırmalıdır

Hər bir halda İranın Azərbaycana qarşı atdığı addımlar, ölkəmizə qarşı kampaniyaları qonşuluq siyasətinə yaraşan hərəkətlər deyildi. Bu ölkə Azərbaycanla münasibətlərin korlanmaması üçün hər dəfə səy göstərdi.

Daha sonra Tehrandakı səfirliyimizdə baş verən terror aktı vəziyyəti daha da gərginləşdirdi. Yayılan videogörüntülərdə iranlı mühafizəçinin əlində silah olan şəxsin binaya yaxınlaşmasına mane olmadığı, hətta şərait yaratdığı açıq-aşkar göründü. Silahlı hücum nəticəsində səfirliyin bir əməkdaşı şəhid oldu, ikisi isə yaralandı.

Azərbaycan tərəfi İrandan hadisə ilə bağlı aydın açıqlamalar, terror aktının şəffaf araşdırılmasını, cinayətkarların cəzasını almasını və bununla bağlı qısa zamanda bizə cavab verilməsini tələb etsə də, hadisədən üç aydan çox keçməsinə baxmayaraq, hələ heç bir cavab, reaksiya yoxdur.

Konfransda sualı cavablandırarkən İranda səfirliyimizə qarşı baş verən terror aktı ilə bağlı məsələyə toxunan Prezident İlham Əliyev qeyd etdi ki, bu, diplomatlarımızı və onların ailə üzvlərini qətlə yetirmək məqsədilə qəsdən təşkil olunmuş terror aktı idi: "Çünki həmin binada nəinki bizim səfirliyimiz, o cümlədən ailələrin yaşadığı mənzillər də yerləşir. Bir sıra ölkələrdə bizim təhlükəsizlik əməkdaşlarımız var, lakin yalnız İranda onlara silah gəzdirməyə icazə vermirlər. Bir sözlə, həmin şəxs səfirliyə daxil olduğu zaman təhlükəsizlik əməkdaşlarımız silahsız idi. Onun əlində "Kalaşnikov" avtomatı var idi. O, girən kimi atəş açdı, birini qətlə yetirdi, digərlərini yaraladı. Yalnız bir cəsur əməkdaş əliyalın olaraq onu silahsızlaşdırdı və sıxıb çölə çıxara bildi. Sonra 40 dəqiqə ərzində nə polis, nə təhlükəsizlik əməkdaşı, heç kəs görsənmədi. Qırx dəqiqə ərzində o, yenidən soxulmağa cəhd etdi. "Kalaşnikov" avtomatından atəş açırdı, gətirdiyi çəkicdən istifadə edirdi. Daha sonra "Molotov kokteyli" də gətirmişdi. Qapını çəkiclə sındıraraq içəri daxil oldu və həmin yaralı əməkdaş yenidən onu sıxaraq çölə çıxara bildi. Sonra həmin şəxs polisə yaxınlaşır. Çöldə də kameramız var. O, istifadə etdiyi "Kalaşnikov" avtomatını və "Molotov kokteyli"ni verir. Bunun əvvəlcədən təşkil olunmadığı ilə bağlı şübhə qalırmı?"

Prezident həmçinin Azərbaycanın parlament üzvünə qarşı da terror aktı törədildiyini xatırladaraq bir neçə gündən sonra onu həyata keçirən qrupun yaxalandığını vurğulayıb.

### "Azərbaycan ilə İran arasında münasibətlər hazırda heç zaman olmadığı qədər çox aşağı səviyyədədir"

Baş verən hadisədən sonra böyük bir dəstənin ifşa edildiyi bəllidir. Aparılan istintaq araşdırmaları və dindirilən şəxslər də sifarişi haradan aldıqlarını etiraf ediblər. Azərbaycan Prezidenti bildirib ki, gizləndiyi yerdən asılı olmayaraq, hər kəsi tapıb, məsuliyyətə cəlb edə bilirik: "...Bütöv dəstə ifşa edildi və ifadə verdilər ki, onlar göstərişləri İrandan alıblar. Bu əməl "qırmızı xətti" keçmək deməkdir. Bu, ciddidir, terror hesab edilir. Hesab edirik ki, bu terror hökumət səviyyəsində təşkil olunub".

Dövlət başçısı bu əməlin kiminsə törətdiyi ilə bağlı verilmiş hər hansı bəyanatın tamamilə yersiz hesab edildiyini vurğulayaraq Azərbaycanın tələblərini səsləndirib: "Buna görə biz tələb edirik: birincisi, Azərbaycandan olan və İranda özünə sığınacaq tapmış bəzi terrorçuların ekstradisiyası baş tutsun. Biz səfirliyimizə qarşı törədilmiş terror hücumunun şəffaf araşdırılmasını tələb edirik. Beləliklə, təsəvvür edə bilərsiniz ki, Azərbaycan ilə İran arasında münasibətlər hazırda heç zaman olmadığı qədər çox aşağı səviyyədədir və onların həmin səviyyədə qalacağı, yoxsa daha aşağı düşəcəyi və ya qalxacağı barədə əvvəlcədən bir şey söyləmək çox çətindir. Proqnozlaşdırma çox mürəkkəbdir".

Münasibətlərin normallaşması ilə bağlı İran rəsmilərindən bəzi məktublar alındığını və bəzi telefon danışıqları olduğunu deyən ölkə rəhbəri əlavə edib ki, lakin birmənalı olaraq Azərbaycanın tələbləri legitim və əsaslıdır. Əgər bu tələblər yerinə yetirilərsə, onda ölkəmiz normallaşma haqqında danışa bilər.

Prezident İlham Əliyev, əslində, çıxışı ilə İranı bir daha normal münasibətlər qurmağa səslədi. Yəni hüquq və qanun çərçivəsində. Ölkəmizə qarşı törədilən terror aktlarının şəffaf araşdırılması və bunlara cavab verilməsi şərtilə. Və bir daha bəyan etdi ki, İranda hər kəs, bütün dairələr Azərbaycanla hədə və terror dilinin işləməyəcəyini anlamalıdırlar.

Bu bir həqiqətdir ki, Azərbaycan qonşu ölkələrlə münasibətlərin inkişafı istiqamətində daim əməli addımlar atıb. Ərazi bütövlüyünü, suverenliyini, dövlət sərhədlərini tam bərpa edərək Cənubi Qafqazda sülhün, əmin-amanlığın, təhlükəsizliyin yaradılmasında mühüm rol oynayır. 44 günlük Vətən müharibəsindəki Zəfəri ilə regionda yeni reallıq yaradan, söz və güc sahibinə çevrilən, Cənubi Qafqazın inkişafı üçün mühüm beynəlxalq layihələrin təşəbbüskarı kimi çıxış edən ölkəmiz bütün dövlətlərlə əməkdaşlığa və ikitərəfli əlaqələrə açıqdır. Və hər zaman regionda sabitliyi, inkişafı dəstəkləyir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# XİN Azərbaycanın İrandakı dörd diplomatının "arzuolunmaz şəxs" elan edildiyini təsdiqləyib

Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Azərbaycanın İrandakı səfirliyinin və Təbriz şəhərindəki baş konsulluğunun əməkdaşlarının İran tərəfindən arzuolunmaz şəxs elan edilməsi ilə bağlı yerli medianın sualını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, Ayxan Hacızadə mətbuatda bu günlərdə yayılmış sözügedən xəbərin yeni olmadığını deyib.

"Məlum olduğu kimi, cari il aprelin əvvəlində İranın ölkəmizdəki səfirliyinin 4 əməkdaşı diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətlərə görə Azərbaycan hökuməti tərəfindən "persona non grata" (arzuolunmaz şəxs) elan edilib.

İran tərəfi öz növbəsində Azərbaycanın bu addımından bir neçə gün sonra, heç bir əsas olmadan və yalnız qarşılılıq prinsipini bəhanə gətirərək, ölkəmizin İrandakı səfirliyindən hələ yanvarda təxliyə olunmuş 2 nəfər əməkdaşı və baş konsulluğun 2 nəfər əməkdaşını arzuolunmaz şəxs elan edib. Ölkəmizə qarşı atılmış bu addım bir sıra problemlərin mövcud olduğu ikitərəfli münasibətlərə xələl gətirir", - deyə o qeyd edib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik Mehdi Mehdizadə (keçmiş Maksim Qorki) adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış, 10[a] sinfinin məzunları sinif yoldaşları Nazim Quliyevə qardaşı

**QƏŞƏM HƏMİD OĞLU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5807**
**Sifariş 1071**

**Qiyməti 40 qəpik**